Bizim Ailə

№:16-Noyabr-Dekabr-2010-Qadın-Ailə Jurnalı



BİZİM AİLƏ

Qadın- Ailə jurnalı
Dövlət Reyester№ 20929

Təsisçi:
İpəkyolu MMC

Redaktor:
Gülnarə Seyidova

Məsləhətçi
Samirə Mahmudova

Redaktor müavinləri:
Qətibə Vaqifqızı
Mətanət Kərimova

Redaksiya heyəti:
Dr.Mehri Məmmədova
Dr.Nailə Süleymanova
Dr.Sevinc Aslanova
Dr.Mehriban Qasımova
Dr.Samirə Həsənova
Zeynəb Nuri
Meryem Demir
Vüsalə Quliyeva
Rəna Mirzəliyeva
Aygün Məmmədzadə
Mətanət Kərimova

Abunə və reklam işləri:
Aynur Məmmədova

Dizayn: Bizim ailə

Ünvan: Bakı şəhəri, Cəfərov Qardaşları küçəsi. 16
Tel: (+994 050) 369 65 23
(+994 12) 502 07 55

Web:
www. bizimaile. az
e-mail:
bizimailedergisi@yahoo.com

Əziz oxucu!

Bu sayımızda insanların iç dünyasını məhv edən həsəd və qısqanclığın əsas xüsusiyyətlərini anlatmağa çalışdıq. Həsədin qaynağı nəfsdir. Bu səbəblə həsəd insanı, şüuru bağlı bir hala salar. Nəfsinin eqoist ehtiras və istəklərinin boyunduruğu altında olan belə bir kimsə, möminin malına, maddi imkanlarına , elminə, gözəlliyinə və ya zəkasına həsəd edər. Bu həsəd sahibi, əgər özünə möminlər arasında bir yer əldə etmişsə, həsədiylə yaxınlarını, onu dinləyənlərə təsir etməyə çalışar. Məqsədi həsəd etdiyi adam və ya kəslərə qarşı təhrikedici olmaq və onlara əlindən gəldiyincə zərər verməkdir. Onun fikrinə görə bütün gözəlliklərə özü layiqdir. Başqasında bunları görməyə dözümü yoxdur. Qısqanclıq edənin ən əsas xüsusiyyəti nəfsinə uyması, lovğalanması və eqoist olmasıdır.

İnsan nəfsindəki bütün pisliklər kimi qısqanclıq və həsəd də təmizlənilməsi, idarə altına alınması lazım olan bir duyğudur.

Əziz oxucularımız!

Jurnalımızın bu sayında möhtərəm **Osman Nuri Topbaşın "Ürəklərdəki gözəllikləri yox edən həsəd", Hatice Şahinin "Təbəssüm niyə sədəqədir?", Sevinc Vəkilovanın "Qurbanın mahiyyəti", Sevinc Aslanovanın "Qurban", Vüqarə Məmmədovanın "Uşaqlara ilk tərbiyəni verən anadır"** məqalələrini sevəcəyinizə ümid edirik.

Bundan başqa hər zamankı kimi yenədə xanımlara faydalı məsləhətlər, ləzzət dünyası, uşaqlar üçün məscid ədəbini sizlərə təqdim edirik.

Sonda isə qarşıdan gələn Qurban bayramı və 31 dekabr Dünya Azərbaycanlılarının həmrəyliyi günü münasibəti ilə hər birinizi təbrik edirik.

İÇİNDƏKİLƏR

3

İÇİMİZDƏKİ ZƏHƏR: HƏSƏD VƏ QISQANCLIQ

5

HƏSƏD

20

ÜRƏKDƏKİ GÖZƏLLİKLƏRİ YOX EDƏN HƏSƏD

30

QURBANIN MAHİYYƏTİ

İÇİMİZDƏKİ ZƏHƏR: HƏSƏD VƏ QISQANCLIQ
Gülnarə SEYİDOVA.....3

HƏSƏD
Samirə MAHMUDOVA.....5

CƏHƏNNƏMDƏN BİR KÖK
Meryem DEMİR.....7

HƏSƏD HARAMDIR
Mədinə UÇKUN.....10

Mərhum Musa Əfəndidən
Xanımlara Tövsiyələr
Aygün MƏMMƏDZADƏ.....12

AŞURA GÜNÜNÜN FƏZİLƏTİ
Kəmalə HÜSEYNOVA.....14

Hz. MARİYA
Lalə ƏHMƏDOVA.....16

SABAH GECDİR ARTIQ
Mətanət KƏRİMOVA.....18

ÜRƏKDƏKİ GÖZƏLLİKLƏRİ YOX EDƏN HƏSƏD
Osman Nuri TOPBAŞ.....20

Hz. HÜSEYN
Zöhrə PAŞAYEVA.....25

QURBANIN MAHİYYƏTİ
Sevinc VƏKİLOVA.....26

HARAMLAR SƏBƏBSİZ DEYİL
Vüsalə MANAFOVA.....28

TƏBƏSSÜM NİYƏ SƏDƏQƏDİR
Hatice ŞAHİN.....30

KÖNÜLLƏRDƏN SƏTİRLƏRƏ
Elif GÜLDAR.....32

QURBAN
Dr. Sevinc ASLANOVA.....34

İLK TƏRBİYƏNİ VERƏN ANADIR
Vüqarə MƏMMƏDOVA.....37

LƏZZƏT DÜNYASI
Müyesser TAŞLIYAR.....38

FAYDALI MƏSLƏHƏTLƏR
Məryəm XƏLİLOVA.....40

UŞAQ DÜNYAMIZ
Hicran NOVRUZOVA.....42

31 DEKABR – DÜNYA
AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜ
Bizim Ailədən.....44

Gülnarə SEYİDOVA

İçimizdəki Zəhər: Qısqanclıq və Həsəd

Dincliyin təməlini çürüdən, ictimai quruluşa zərər verən, əlaqələri, ünsiyyəti zədələyən xasiyyətlərin, pis duyğuların təməlində qısqanclıq və həsəd duyğusu vardır. Lakin namus, mal, vətən kimi dəyərlərin qorunmasına xidmət edən qısqanclıq duyğusu normaldır. İnsanın yoldaşını, sevdiyini qısqanması normaldır; çünki bu qısqanclığın təməlində sevgi vardır. Lakin təməlində başqa duyğu və düşüncələr meydana gəlməyə başlarsa o zaman qısqanclıq, əlaqələri təməldən çürütməyə başlayar.

İnsanların din, namus, vətən ilə əlaqədar qısqanclıqlarını itirməsi, mənəvi bir yoxluğun meydana gəlişinin başlanğıcıdır. Ancaq bu cür yüksək dəyərlərin xaricində qalan qısqanclıqlar, içdən yanan bir atəş kimi sahibini hiyləgərcəsinə əridər. Qısqanclıq duyğusunun altında, adamın özünə etibarsızlığı, cəmiyyətə etibarsızlığı, laqeydlilik, etinasızlıq kimi hissləri yatar.

Qısqanclıq edən insan, bu duyğunun özünü məhv edəcəyinin şüurunda belə olmadan, dostuna da düşmənینə də gələn nemətlərdən narahatlıq keçirər. Qısqanclıq ilk olaraq qısqanana zərər verər. Qısqanılan adam bu duyğudan zərər görməz.

Mütəxəssislər, qısqanclığın hər insanda olan təbii bir romantik davranış olmasında həmfikirdirlər. Əhəmiyyətli olan bu romantik davranışı idarə altına ala bilmək və həddindən artığa qaçmamaqdır. Çünki həddindən artığa qaçan bir qısqanclıq, həyat keyfiyyətinə və adamın psixoloji quruluşuna zərərveri-

ci təsirlər doğuracaq.

Hz. Aişə (r.a) izah edir: "Rəsulullah (s.ə.s) bir gecə yanımdan çıxıb getmişdi. Xanımlarından birinin yanına getmiş ola bilər deyə içimə qısqanclıq düşdü. Geri gəlincə halımı anladı və: "Qısqandınmı yoxsa?" dedi. Mən də:

"Bəli! Mənim kimi biri sənin kimi birini qısqanmaz da nə edər?" dedim. Rəsulullah; "Sənə yenə şeytanın gəlib deyəsən" dedi. Mən: "Mənimlə şeytanmı var?" dedim. "Şeytanı olmayan kim-sə yoxdur" dedi. "Sənlə də varmı?" dedim. "Bəli, ancaq ona qarşı Allah mənə köməkçi oldu. O da müsəlman oldu!" buyurdu." (Müslim, Münafiqin 70, (2815); Nəsəi, İşrətünisə 4, (7, 72)

Həsəd və qısqanc rəftarlı insanlar, psixoloji və fiziki cəhətdən yorğun olurlar. Çünki bu duyğular insanın enerjisini istehlak edər, qocaldar və ruhi xəstəliklərə səbəb olar. Həsəd və qısqanclıq duyğusu, insanda bir zəiflik əlamətidir. Bu zəifliyin təsirləri isə həyatının hər anında, həm özü üzə-rində əxlaq zəifliyi, iman və inanc zəifliyi şəklində, həm də ictimai təsir olaraq əxlaqsız davranışlar, cinayətlər və s. şəklində ortaya çıxar.

Hz. Mövlana məsnəvidə qısqanclıq və həsəd haqqında belə yazmışdır:

"Yolda həsəd boğazına sarılmasın. Çünki şeytan həsəd üzündən rəddolundu." (Məsnəvi, I. 445)

Təsəvvüf mütəxəssisinə görə qısqanclıq və həsəd, pis və zərərli bir duyğu olduğu üçün haram hökmündədir. Cahilliklə və acgözlüklə bəslənər ki bu da daha çox tanış və qohumlar arasında olur. Bəzi görüşlərə görə qısqanclıq, bir etibarsızlığın əlaməti, yetkinləşməmiş, xam bir duyğu və ya ruhi bir pozuqluğun əlamətidir.

Qısqanclığın və həsədin haram olmasının səbəbi; adamın, Allahın (c.c) insanlar arasında etdiyi paylaşmanı bəyənməmə, qəbul etməmə və hikmətini qavraya bilməməsidir. **"Sizə bir pislik toxunsa, ondan ötrü sevinərlər"** (Ali imran Surəsi/120) **"Kitab sahiblərinin çoxu, gerçək özlərinə müəyyən olduqdan sonra, sırf içlərindəki həsədə görə sizi imanınızdan sonra küfrə çevirmək istəyərlər."** (Bəqərə, 109)

Allah qatındakı və möminlə arasındakı üstünlük, gözəllik, zənginlik, şan-şöhrət, karier, kimi təməllərə söykənən deyil üstünlük, Peyğəmbərimizin (s.ə.s) də ifadə etdiyi kimi, təqva tərəfindən ən üstün olandır.

Allah (c.c), qısqanc insanın pisliklərindən çəkinilməsi lazım olduğunu Fələq Surəsi ilə bildirərək xəbərdar etmişdir. Çünki qısqanclıq və həsəd, insanı mütləq bir əxlaqsızlığa salar. **"De ki; 'Səhərin Rəbbinə sığınıram. Yaratdığı şeylərin şərindən, qaranlıq çökdüyü zaman gecənin şərindən, düyünlərə üfürən qadınların şərindən, həsəd etdiyi zaman həsəd aparanın şərindən."**

Qısqanclığın və həsədin haram olmasının səbəbi; adamın, Allahın (c.c) insanlar arasında etdiyi paylaşmanı bəyənməmə, qəbul etməmə və hikmətini qavraya bilməməsidir. Ayədə buyurulur: "Sizə bir pislik toxunsa, ondan ötrü sevinərlər" (Ali imran Surəsi/120)

Samirə MAHMUDOVA

HƏSƏD

Həsəd edən adam bu xisləti üzündən rahat yuxu yatmır, daima həsəd etdiyi insanı düşünür, hətta ona gələn müsibəti sevinclə izləyərək zövq alır. Allah Rəsulu (s.ə.s.) bir hədisində belə buyurmuşdur ki: "Həsəddən uzaqlaşın. Atəşin odunu yeyib bitirdiyi kimi həsəd də yaxşılıqları yeyib bitirir".

Həsəd - başqasının yaxşılığına və sahib olduğu nemətə üzülmək və bu nemətin onun əlindən getməsini istəməkdir. İnsanın mənəvi xəstəliklərindən ən təhlükəlisi həsəddir. Belə ki, başqasının yüksəlişini gördüyü zaman ona qarşı duyduğu qısqanclıq hissləri getdikcə artır və insanı mənəvi və hətta cismani olaraq məhv olma dərəcəsinə gətirir. Qazandığı savablar da bu mənəvi xəstəlik ucbatından bir-bir uçub gedir. Əgər insan mənən qəlbini təmizləyə bilmirsə, bu həsəd və qısqanclıq hissi onu yeyib bitirir. Üstəlik bununla Allahın insanlar üçün təyin etdiyi qədərə də qarşı üsyan etmiş olur. Allahın qulları üzərində payladığı ruzinin sanki doğru paylanmadığını düşünərək: "Niyə ona bu qədər nemət verdin", - deyərək Allaha qarşı çıxır.

Yer üzündə ilk işlənən günah həsəd səbəbindən olmuşdur. Adəm (ə.s.)ın oğlu Qabil qardaşı Habilə həsəd edərək öldürdü. Yusif (ə.s.)ı da qardaşları atalarının onu daha çox sevdiyi üçün qısqanaraq quyuya atdılar. Bu nümunələrdə həsədin necə qorxulu yara olduğu və insan ömrünü qısaltdığı ifadə olunur.

İki cahan sərvəri Hz. Məhəmməd (s.ə.s.) hədislərində həsəd və nifaqın ümməti üçün böyük bəla olacağı haqqında narahatçılığını ifadə edərək belə buyurmuşdur: "Mənim ümmətimə də keçmiş ümmətlərin xəstəliyi keçə-

cək. Bu hansı xəstəlikdir?- deyə soruşsalar, bunlar küfrani-nemət (neməti bəyənməmək), bolluqda azğınlıq, başqasının malına göz dikmək, bir-birindən uzaqlaşmaq, həsəd etməkdir ki, bu yolla hüdudu aşarlar, sonra da pərişan olarlar. (Tirmizi)

Həsəd edən adam bu xisləti üzündən rahat yuxu yatmır, daima həsəd etdiyi insanı düşünür, hətta ona gələn müsibəti sevinclə izləyərək zövq alır. Qarşısındakı insana bəla gəlməsi üçün də, bəlkə, illəri gözləyir. Amma bu keçən illərin onun da ömründən getdiyinin fərqinə varmır. İçini bürüyən xəsislik onun dünyada rahat və hüzur dolu yaşamağına mane olur, həyatı zindan olur. Üstəlik qarşısındakını gözü götürməməsi onun əldə etdiyi savablarının da puç olmasına səbəb olur. Çünki Allah Rəsulu (s.ə.s.) bir hədisində belə buyurmuşdur ki: "Həsəddən uzaqlaşın. Atəşin odunu yeyib bitirdiyi kimi həsəd də yaxşılıqları yeyib bitirir".

Rəvayətə görə Musa (ə.s) bir gün ərşin kölgəsində bir adamın oturduğunu gördü. Maraqlandı."Yəqin Allah qatında gözəl insandı", -deyə düşündü. Sonra Rəbbinə: "Ya rəbb, bu adam kimdir? Adı nədir? -deyə soruşdu. Allah Təala adını söyləmədən üç əməl ilə onun bu mərtəbəyə çatdığını söylədi:

1. Kimsəyə həsəd etmədi;
2. Ata-anasına asi olmadı;
3. Söz gəzdirmədi.

Belə ki, paxıl insan qarşısındakı kimsəni gözü götürmədiyi üçün arxasınca qeybətini də edərək, onu alçaltmaq istər. Bu fikirlər onu gün keçdikcə irəli addım atmağındansa, geri salar. Üstəlik qəlbini bürüyən həsəd kin-küdurət və nifrət kimi digər mənəvi xəstəliklərin artmasına da zəmin yaradır. Halbuki qədərinə razı olub Allahın verdiyi nemət ilə kifayətlənən insan qonaq olduğu bu dünyada əbədi olmadığını düşünərsə və Allahın razı olduğu işləri görərsə, həm bu dünyasını, həm də axirətini qazanar, Allahın xas qullarından olar.

Son olaraq onu ifadə etməkdə fayda var ki, insanın Allah Təalanın razı olduğu işləri görüb sevmədiyi işlərdən uzaqlaşması, qəlbini kin, nifrət, həsəd və s. kimi xəbis xüsusiyyətlərdən təmizləməsi həm Allah, həm də insanlar nəzdində ucaldar, onu sultan edər. "Çünki insan bədənində bir ət parçası vardır. O, yaxşı olarsa, bütün bədən yaxşı, o, pis olarsa, bütün bədən pis olar. Diqqət edin, o qəlbdir!"- deyə Peyğəmbərimiz (s.ə.s.) qəlb təmizliyinin nə qədər insanın maddi və mənəvi saflığı üçün əhəmiyyət kəsb etdiyini vurğulamaq istəmişdir.

Meryem DEMİR

CƏHƏNNƏMDƏN BİR KÖK

Həsəd "onda olmasın, məndə olsun" deməkdir, ilahi bölgüyə razı olmamaqdır. Həsəd qardaşı qardaşa öldürtməyə qədər gedər, Habil-Qabil hadisəsində olduğu kimi… Mömin olan kəsin qardaşı üçün düşüncəsi: "onda da olsun, məndə də" şəklindədir. Bunun adı qibtədir.İslam dini qula həsədi qadağan etmişdir. Bir mömin özündəki mənfi xasiyyətləri müsbətə çevirməli, özünü yeniləməli, Mövlananın dediyi kimi axar suya bənzəməli, bulanmaqdan xilas olmalıdır. Həsədi isə qibtə ilə yox etməlidir.

Rəvayətə görə xəlifələrdən birinin dövründə olduqca zəngin bir adam, bazardan bir kölə alıb evinə gətirir və onunla kölə kimi deyil, alicənab bir adam kimi rəftar edir. Bahalı paltarlar alır, ləziz yeməklər təqdim edir, xərcləməsi üçün bol miqdarda pul verir. Sözün qısası, onunla sanki ata-bala olurlar. Ancaq bir məsələ kölənin diqqətindən qaçmır; onunla bu qədər yaxşı davranan ağası həmişə düşüncəlidir, daim kədərlidir. Bir gün ağası ona edə biləcəyi ən böyük yaxşılığı da edir. Onu azad edəcəyini söyləyərək yaxşı bir iş qurub sərmayə olaraq istifadə edə bilməsi üçün kifayət qədər pul da verəcəyini bildirir. Kölənin sevincinin həddi-hüdudu olmur.

Həmin gecə sahibi köləsini yanına çağırıb onunla dərdləşmək istədiyini söyləyir və qəlbini açır: "Bax, övladım", deyir "Sənə bu qədər yaxşılıqlar etdim, hətta səni azad etməyə və sərmayə olaraq istifadə edə biləcəyin kifayət miqdarda pul da verməyə niyyətləndim. Bütün bunları nə üçün etdim, bilirsənmi?" Kölə: "Xeyr", deyir, Sahibi:

"Sənə etdiyim yaxşılıqların əvəzində bir xahişim var. Bu xahişmi yerinə yetirsən, sənə verdiyim hər şey halal olsun deyərəm, ancaq xahişmi yerinə yetirməzsənsə haqqımı halal etmərəm. Üstəlik istəyimi reallaşdırsan bu günə qədər verdiklərimdən qat-qat artığını verəcəyəm!" Kölə: "Əmriniz başım üstə; siz mənim ağamsınız, hər əmrinizi yerinə yetirməyə hazıram. Siz məni yenidən həyata qovuşdurdunuz, nə istəsəniz edərəm..." cavabını verdikdə, ağası: "Yox, elə olmaz. Mənə söz verməlisən, istəyimin nə olduğunu öyrəndikdən sonra imtina edəcəyindən qorxuram!" – deyir.

Kölə nə istəsə edəcəyinə dair and içib söz verdikdən sonra ağası: "İndi mənə diqqətlə qulaq as deyir və əlavə edir: "Mənim təyin edəcəyim bir vaxtda və məkanda başımı kəsəcəksən!"

Kölə heyrətdən donub qalır, qulaqlarına inana bilmir. Nə qədər "Ağam, bu necə ola bilər?!" desə də fayda etmir. Ağası kölənin andını yadına salaraq onu razı salır.

Gecənin bir yarısı sahibi gedib köləni oyandırır, əlinə iti bir bıçaq verib ardınca gəlməsini söyləyərək evin damına çıxır, oradan da bitişikdəki evin damına, oradan da başqa bir evin damına keçir. Ağanın qonşusunun evi olan bu evin damında pulla dolu bir kisəni köləsinə verib "Bu pul sənin olsun" deyir, "Mənim başımı burada kəsəcəksən, sonra da istədiyin yerə getməkdə sərbəstsən". Kölə heyrətdən donub qalmışdı. "Nə üçün sizi öldürməyimi istəyirsiniz?" deyə soruşur, sahibi bu cavabı verir: "Bu qonşumun evinin damıdır. Mən bu qonşumu dəhşətli dərəcədə qısqanıram, gözüm götürmür. Biz ticarətdə bir-birimizə rəqib idik. O, məni geridə qoydu. Ehtirasımdan yanıb yanıb kül olmaq istəyirəm, dözə bilmirəm! Nəhayət belə qərara gəldim ki, özümü öldürüm. Bu cinayəti onun işlədiyini bilsinlər və zindana atsınlar. Başqa cür rahat ola bilmirəm.. Bu cinayət mütləq onun üstündə qalacaq, çünki birbirimizə rəqib idik.

Rəsulullah (s.ə.s) "Həsədin kökü cəhənnəmdədir" - buyurmuşdur. Bir başqa hədisi-şərifi isə Hz. Əbu Hüreyrə izah edir: "Rəsulullah buyurdu ki: "Həsəddən uzaq olun. Çünki o, alovun odunu yeyib tükətdiyi kimi, bütün xeyirləri yeyər."

Kölə eşitdikləri qarşısında heyrətə gəlir. "Bir insan ancaq bu qədər alçala bilər, sənin kimi axmaq və alçaq adamın haqqı da ölümdür onsuz da", deyərək onun istəyini yerinə yetirir, başını kəsir pulları da götürüb oradan uzaqlaşır. Çox keçmədən cəsədi qonşunun damında tapırlar. Zavallı adamı tutub zindana salırlar. Lakin bir tərəfdən də: "Əgər qatil bu adamdırsa niyə onu öz evinin damında öldürsün ki? Bu işin içində iş var.." deyə bir dediqodu yayılır şəhərə.

Çox keçmədən hadisənin iç üzü aydın olur. Vicdanı narahat olan kölə, qazıya müraciət edib həqiqəti söyləyir: "Tutduğunuz adam günahsızdır, onu öz istəyi ilə mən öldürdüm, bu zavallıya qatil damğası vura bilmək üçün planladı hər şeyi. Qısqanclıqdan yanıb alovlanırdı", deyir. Məsələ aydınlaşdıqdan sonra qətldə günahkar bilinən qonşu və kölə azad edilir, hadisə də tarix səhifələrinə keçir.

Həsədindən qonşusunu sırf töhmət

altına salmaq üçün özünü öldürtdürən adam üçün şair Tahirul Mövləvi belə deyir :

Nə özü etdi rahat, nə xalqa verdi dinclik,

Yıxıldı getdi qəhr olası, dözümlü olsun əhli qubur.

Rəsulullah (s.ə.s) "Həsədin kökü cəhənnəmdədir" - buyurmuşdur.

Bir başqa hədisi-şərifi isə Hz. Əbu Hüreyrə izah edir: "Rəsulullah buyurdu ki: "Həsəddən uzaq olun. Çünki o, alovun odunu yeyib tükətdiyi kimi, bütün xeyirləri yeyər".

Hər bir insan daxilindəki bu duyğulardan azad olmaq üçün səy göstərməlidir. Bunun olmaması nəfsin istəklərinin əksini etməkdir. Məsələn, daxilindəki həsəd duyğusu birini pisləməsini istədikdə adam, bunu şeytanın özü üçün hazırladığı tələyə düşmək demək olduğunu anlayaraq əksini etməli onu tərifləməlidir. Özündən birinə qarşı qürurlu davranmasını istədiyində etiraz edərək təvazökarlıq göstərməli; verməməyi pıçıldadığında, verməlidir. Adamın bu davranışları, qarşısındakı insanı razı edər və onun tərəfindən sevilməsinə səbəb olar. Bu şəkildə qarşılıqlı sevgi başlar və zamanla həsəd xəstəliyi yox olar. İlkin mərhələdə zorla olsa da, zamanla bu cür hərəkət etmək insanın şəxsiyyətində formalaşar. Bununla da həsəd öz yerini qibtəyə verər.

HƏZRƏT AİŞƏNİN DİLİNDƏN XATİRƏLƏR

Rəsulullah (s.ə.s) mənə:

"Mən, sənin məndən razı və narazı olduğun vaxtları bilirəm", dedi.

Mən:

"Bunu necə bilirsiniz?" deyə soruşdum.

"Məndən razı olduğun zaman "Xeyr! Məhəmmədin Rəbbinə and olsun!" deyirsən. Narazı olduğun vaxtlar "Xeyr! İbrahimin Rəbbinə and olsun!" deyirsən", buyurdu. Mən:

"-Doğrudur, ey Allahın Rəsulu, mən sadəcə sənin adını tərk edərəm. Sevgin isə ürəyimdə yaşayar", dedim. (Buxari)

*****

Bir dəfə Həzrət Aişənin hücrəsinə bir hərb əsiri gətirmişdilər. Əsir Həzrət Aişənin qadınlarla məşğul olmasından istifadə edərək qaçmışdı. Rəsulullah əsiri görməyə gələndə onun qaçdığını görüb çox üzüldü:

"Aişənin əli qırılsın!" deyərək əsirin axtarılması üçün çölə çıxmışdı.

Həzrət Peyğəmbər Həzrət Aişənin hücrəsinə qayıdan zaman, Həzrət Aişənin əllərinə baxıb qaldığını görür və təəccüblə nə etdiyini soruşur. Həzrət Aişə:

"Mənə bəddua etdin. Hansı əlim qırılacaq ona baxıram", -cavabını verdi.

Buna görə Həzrət Peyğəmbər (s.ə.s) belə dua etdi:

"-Ey Rəbbim! Mən də bir insanam, insanlar kimi hiddətlənirəm.

Ey Rəbbim! Kişi və ya qadın hansı müsəlmana bəddua etsəm, mənim bu bədduamı xeyrə çevir".

Mədinə UÇKUN

HƏSƏD HARAMDIR

Həsəd müsəlmanın xeyirli əməllərini məhv edən çox çirkin bir əxlaq növüdür. Həsəd elə bir ruh xəstəliyidir ki, ona heç bir həkim çarə tapmaz. Həsəd kinin nəticəsidir. Həsədin çoxlu miqdarda qolları vardır. Peyğəmbərimiz (s.ə.s) belə buyurmuşdur: *"Əsla bir-birinizə həsəd etməyin! Küsməyin, bir-birinizə nifrət etməyin. Bir-birinizə arxa çevirməyin. Ey Allahın bəndələri qardaş olun!"* (Müslim, Buxari)

Hz. Ənəs (r.a.) belə rəvayət edir: "Bir gün Hz. Peyğəmbərin yanında otururduq, belə buyurdular: İndi bu yoldan cənnət əhlindən bir kişi çıxıb yanımıza gələcəkdir. Bir az sonra ənsarı-kiramdan bir kişi gəldi. Saqqlından dəstəmaz suyu tökülürdü. Ayaqqabısını sol əlinə almışdı, bizə salam verdi. Ertəsi günü Peyğəmbərimiz yenə də eyni şeyi söylədi. Yenə həmin kişi gəldi. Üçüncü günü yenə eyni şeyi söylədikdə, yenə o kişi gəldi. Hz. Məhəmməd (s.ə.s) ayağa qalxıb gedərkən Abdullah b. Amr əl-As o adamı izləməyə başladı və dedi: "Mən atamla bir xüsusda mücadilə etdim. Üç gün atamın evinə getməmək üçün and içdim. Əgər bu üç gün bitənə qədər məni qonaq etsən, sənin qonağın olaram. Adam: Bəli səni qonaq edərəm!",-dedi. Abdullah gecə bu kişinin qalxıb namaz qıldığını görmədi. Ancaq yatdıqda, hər tərpəndikdə Allah Təalayı xatırladığını görürdü. Sübh namazına qalxana qədər yatırdı. Abdullah deyir ki: "Üç gün keçdikdən sonra hardasa onun əməlini az gördüyüm üçün ona dedim ki, Ey Allahın bəndəsi! Mənim atamla aramda heç bir inciklik və küsüşmə yoxdur. Amma mən Hz. Peyğəmbər belə söylərkən dinlədim. Buna görə də sənin əməllərini görmək üçün belə söylədim. Amma sənin çox

ibadət etdiyini görmədim. Görəsən səni bu mərtəbəyə gətirən nədir?"

Adam: "sənin gördüyündən başqa bir əməlim yoxdur",-dedi. Abdullah: "Mən ayrıldıqda adam məni səslədi və: "Sənin gördüyündən başqa bir şey yoxdur! Ancaq mən nəfsimdə hər hansı bir müsəlmana qarşı Allahın ona verdiyindən dolayı hiylə və həsəd daşımamaqdayam",-dedi. (Tirmizi)

Həsəd elə bir mikrobdur ki, gənc-qoca, alim-cahil, müəllim-tələbə demədən hər kəsin içində özünə çox rahat yer sala bilir. Qardaşı-qardaşa, dostu-dosta, qonşuyu-qonşuya, qaynananı-gəlinə, gəlini-qaynanaya düşmən edən də həsəd duyğusudur. Birlik, bərabərlik içində görünən neçə dostlar necə darmadağın olmuşdur.

Həsəd elə bir mikrobdur ki, gənc-qoca, alim-cahil, müəllim-tələbə demədən hər kəsin içində özünə çox rahat yer sala bilir. Qardaşı-qardaşa, dostu-dosta, qonşuyu-qonşuya, qaynananı-gəlinə, gəlini-qaynanaya düşmən edən də həsəd duyğusudur. Birlik, bərabərlik içində görünən neçə dostlar necə darmadağın olmuşdur.

Bu həsəd duyğusu bir gün bizim də qapımızı döyə bilər. Bizim içimizdə də özünə yer tapa bilər. Buna görə də özümüzü sınayaq. Əcaba dostlarımızın sevincini, müvəffəqiyyətlərini öz sevincimiz və müvəffəqiyyətimiz hesab edirikmi? Bizdən üstün olan dostumuzun üstünlüyünü xoş görə bilirikmi? Hətta bundan böyük zövq ala bilirikmi? O zaman sulların cavabı həsəd qarşısında öz yerinizi təyin edəcəkdir. Qonşumuzun, onun oğul-uşağını çox xoşbəxt bir ailə həyatı yaşadığını gördükdə: "Allah bunu hər kəsə nəsib etsin. Nə qəşəng",-deyə bilirikmi? Çünki bu çox mühümdir, içimizdən bir insana qismət olmuş səadətin hər kəs tərəfindən qazanılmasını, arzu etmək bir ruh zənginliyinin işarəsidir. Həsəd belə ruhlara təsir edə bilməz.

Həsəd etmək Allah Təalanın təqdirini dəyişdirə bilməz. Həsəd edən boşuna yorulur və üzülür. Üstəlik böyük günaha girər. Həsədin həsəd edilənə dünyada heç bir zərəri ola bilməz. Əksinə faydası olar. Heç bir həsədçi istəyinə nail olmamışdır. Həsəd əsəbləri pozar, ömrün qısalmasına səbəb olar.

Həsəd edilənə dünya və axirətdə heç bir zərər olmaz. Həsəd edənin ömrü üzüntü ilə keçər. Həsəd etdiyi insanın malının azaldığını deyil, artdığını görüb əsəb keçirər.

Həsəd alovu içimizdə alovlandığı zaman Allah Təalaya sığınaq. Bir tərəfdən də dəstəmaz alıb onu söndürməyə çalışaq. Həsədi ən çox qorxudan şey qədərə imandır. Həsəd duyğusu içimizdə nə qədər böyüyürsə böyüsün qədərə imanımızı möhkəmlətdiyimiz zaman o öz təsirini itirmiş olar.

Allah Təala cümlə müsəlmanları qısqanmaqdan, həsəd etməkdən qorusun! Amin!

Aygün MƏMMƏDZADƏ

Mərhum Musa Əfəndidən XANIMLARA TÖVSİYƏLƏR

Rəhmətlik anamı və bacımı düşünürəm. Onlar heç vaxt bazara getməmişdilər. Ərləri nə alıb gətirmişdisə onu da geyinirdilər. Bəzən ərlərinin gətirdiyi paltarı və rəngini bəyənmirdilər, amma bir söz demirdilər. Bilirdilər ki, dünyanın bər-bəzəyinə uysalar əsil vəzifəmiz olan qulluğu unutmağa başlayarlar.

Xanımlar nə qədər çöl işləri ilə məşğul olarlarsa, bir o qədər də stresli olarlar. Çünki göz qəlbin aynasıdır. Qəlbi nə qədər çox məşğul edərsək, bir o qədər yorular. Halbuki uşaqların tərbiyəsi də, ev xanımlığı da səbir tələb edən işlərdəndir.

Tələsə-tələsə hazırlanan və yeyilən bir yemək, onu yeyən insanın mənəvi inkişafına mane olur. Hər loğmanın halal olmasına diqqət edildiyi kimi ocağın başında yeməyi bişirəndə də, süfrəyə qoyulub bərabər yeyilməsi də qəlbin hüzur halında olması şərtdir. Əks təqdirdə yemək mənəvi cəhətdən bişməmiş sayılar və bir sıra mənəvi vərdişlərə zərər verər.

Sahib olunan bütün nemətlər Allahın rizasına uyğun istifadə olunarsa nemətdir, əks halda sahibi tərəfindən imtahan, müsibət və bəladır. Pul da, mindiyimiz maşın da elədir. Hətta geydiyimiz paltar da elədir. Məsələn, geyindiyimiz paltarı almaq üçün saatlarla bazarı gəziriksə çox qiymətli vaxtımızı hədər edirik. Yenə üstümüzdəki paltarı bədənimizi örtməsi xaricində insanlara yuxarıdan baxmaq

Ev xanımları mümkün qədər ev işlərini özləri görməlidirlər. Bu, həm ailə məhrəmiyyəti nöqteyi-nəzərindən, həm də israfa düşməmək baxımından əhəmiyyət kəsb edir. Əvvəlki ailə həyatımızda hər kəsin görəcəyi bir işi var idi. Ara-sıra bir-birimizə kömək etməkdən başqa hamı, canla-başla öz işini görürdü.

üçün geyiniriksə, deməli, bizim üçün mənəvi müsibət başlamış deməkdir. Çünki Peyğəmbərimiz paltarları ilə öyünən, qisas arxasınca düşən insanların Allahın rəhmətindən uzaqlaşdıqlarını xəbər vermişdir.

Telefonla da çox danışmaq günahdır. Bəziləri lazımi iş xaricində, telefonla söhbət edirlər. Bu, həm özümüz, həm də danışdığımız kimsə tərəfdən vaxt israfıdır. Belə qiymətli vaxtlarda necə xeyirli işlər görmək olar?

Ev xanımları mümkün qədər ev işlərini özləri görməlidirlər. Bu, həm ailə məhrəmiyyəti nöqteyi-nəzərindən, həm də israfa düşməmək baxımından əhəmiyyət kəsb edir. Əvvəlki ailə həyatımızda hər kəsin görəcəyi bir işi var idi. Arasıra bir-birimizə kömək etməkdən başqa hamı, canla-başla öz işini görürdü. Bu iş bölgüsü qarşılıqlı anlayış, ailənin səadət və hüzurunu təmin etmək üçün atılan böyük addımlardandır.

İnsan oğlunun üç tələsi var. Bunlar: Sərvət, şəhvət və şöhrətdir. İnsan bunlara qapılıb aldanarsa zəlil olar. Kim mənəvi ləzzətlər üçün, fani ləzzətlərdən uzaq olarsa Allah o quluna başqa ehsanlar edər. İmanın və mənəviyyatın dadını ikram edər.

Qeybət çox mühüm bir xəstəlikdir. Heç kimin arxasınca onun xoşuna gəlməyəcəyi şəkildə danışılmamalıdır. Danışdığımız qüsurlar arxasınca danışdığımız şəxsdə yoxdursa, o zaman iftira etmiş olarıq. Əgər danışdığımız şeylər doğrudursa, bu bir qeybətdir. Allah-Təala müsəlmanların arxasınca xətalarından danışmağı qadağan etmişdir. Bizim vəzifəmiz insanların səhvlərini ortaya tökmək, günahlarını yaymaq deyil. Biz öncəliklə öz xətalarımızı tapıb onları düzəltməyə çalışmalıyıq.

Xanımlar dini və mənəvi məsələlərdə çox çalışqandırlar. Sadəcə iki xüsus onların bu əməklərini kölgədə qoyur: Bazar və dilləri...

Allah hər birimizi öz rizasını istəyən və bu istiqamətdə çalışan əməlisaleh bəndələrindən eyləsin! Amin...

Qeyd:
Bu yazı ŞEBNEM dərgisindən ZAHİDE TOPCUnun yazısından tərcümə olunub

Kəmalə HÜSEYNOVA

AŞURA GÜNÜNÜN FƏZİLƏTİ

Məhərrəm Ayı və Aşura Günü "Şəhrullahi'l-Muharrəm" olaraq məşhur olan, yəni "Allahın ayı Məhərrəm" olaraq bilinən Məhərrəm ayı, İlahi bərəkət və bolluğun, Rəbbani lütfkarlıq və kərəmin coşduğu bir aydır. Allahın ayı, günü və ili olmaz, ancaq Allahın rəhmətinə nail olmağın əhəmiyyətli bir fürsəti olduğu üçün Peyğəmbərimiz (s.ə.s) tərəfindən bu şəkildə ifadə edilmişdir. Aşura Günü isə Məhərrəmin 10-cu günüdür. Aşura Gününün Allah qatında xüsusi bir yerinin olduğu Fəcr Surəsinin ikinci ayəsi olan "On gecəyə and olsun" ifadəsinin təfsirindən öyrənməkdəyik. Bəzi təfsirlərdə bu on gecənin Məhərrəmin Aşurasına qədər keçən gecə olduğu bəyan edilməkdədir. Cənabı Haqq bu gecələrə and içərək onların müqəddəsliyini və bərəkətini bildirməkdədir. Bu günə "Aşura" deyilməsinin səbəbi, Məhərrəm ayının onuncu günü olmasıdır. Hədis kitablarında qeyd olunduğuna görə isə, bu günə bu adın verilməsinin hikməti, o gündə Cənabı Haqq on peyğəmbərinə on dəyişik lütf təqdim etdiyi üçündür. Bu ilahi lütflər belə ifadə edilməkdədir: 1. Allah, Hz. Musaya (ə.s.) Aşura Günündə bir möcüzə lütf etmiş, dənizi yararaq Firon ilə ordusunu sulara qərq etmişdir. 2. Hz. Nuhun (ə.s.) gəmisi Cudi Dağının üzərinə Aşura Günündə yan almışdır. 3. Hz. Yunus (ə.s.) balığın qarınından Aşura Günü xilas olmuşdur. 4. Hz. Adəmin (ə.s.) tövbəsi Aşura Günü qəbul edilmişdir. 5. Hz. Yusuf qardaşlarının atmış olduğu quyudan Aşura Günü çıxarılmışdır. 6. Hz. İsa (a.s.) o gün dünyaya gəlmiş və o gün səmaya yüksəldilmişdir. 7. Hz. Davudun (ə.s.) tövbəsi o gün qəbul edilmişdir. 8. Hz. İbrahimin (ə.s.) oğlu Hz. İsmayıl o gün doğulmuşdur. 9. Hz. Yaqubun (ə.s.), oğlu Hz.Yusufun həsrətindən bağlanan gözləri o gün görməyə başlamışdır. 10. Hz. Eyyub (ə.s.) xəstəliyindən o gün şəfaya qovuşmuşdur.

Aşura gününün mənəvi və aydınlığı üzərində Kərbəla qaranlığının kəsafəti də görülməkdədir. 61-ci hicrət ilinin Məhərrəminə aid 10-cu günündə Hz.Hüseyn (r.a) 55 yaşında ikən Sinan min Ənəs adlı bir xain tərəfindən Kərbəlada vəhşicəsinə şəhid edilmişdir. Yarım əsr əvvəlindən Peyğəmbərimizin (s.ə.s) şəxsən xəbər verdiyi bu ciyərləri yaxan hadisə Həzrəti Hüseyni Cənnət gənclərinin əfəndisi olma şanına ucalt-

mışdır. Şəhidlər mərtəbəsinin ən uca mərtəbəsinə çatmışdır. Uca Allahın da zalımlara layiq olduqları cəzanı ən ədalətli bir şəkildə verəcəyindən şübhəmiz yoxdur.

Aşura Günündə ilk ağla gələn ibadət isə, oruc tutmaqdır. Məhərrəm ayı və Aşura Günü, Əhli Kitab olan Xristian və Yəhudilər tərəfindən də müqəddəs sayılardı. Necə ki, Peyğəmbərimiz (s.ə.s) Mədinəyə hicrət etdikdən sonra orada yaşayan Yəhudilərin oruclu olduqlarını öyrəndi. "Bu nə orucudur?" deyə soruşdu. Yəhudilər, "Bu gün Allahın Musanı düşmənlərindən qurtardığı, Fironu suda boğduğu gündür. Hz. Musa (ə.s.) şükür olaraq bu gün oruc tutmuşdur" dedilər. Bunun üzərinə Rəsulullah (s.ə.s) də, "Biz, Musanın sünnəsinə sizdən daha çox yaxın və haqq sahibiyik" buyurdu və o

gün oruc tutdu, tutulmasını da əmr etdi.

Aşura günü tək əhli kitab arasında deyil, Nuh Əleyhissalam dövründən müqəddəs olaraq bilinir, İslamdan əvvəlki Cahiliyyə dövrü ərəbləri arasında İbrahim Əleyhissalamdan bəri müqəddəs bir gün olaraq bilinir və oruc tutulurdu. Bu barədə Həzrəti Aişə anamız belə deməkdədir: "Aşura, Qureyş qəbiləsinin Cahiliyyə dövründə oruc tutduğu bir gündür. Rəsulullah (s.ə.s) də buna uyğun hərəkət edirdi. Mədinəyə hicrət edincə bu orucu davam etdirmiş və başqalarına da əmr etmişdi. Lakin Ramazan orucu fərz qılındıqdan sonra özü Aşura günündə oruc tutmağı tərk etdi. Bundan sonra müsəlmanlardan istəyən bu gündə oruc tutdu, istəyən tutmadı". (Buxari, Savm: 69) Beləcə Aşura orucu sünnə bir oruc olaraq qaldı. Bir şəxs Peyğəmbərimizə (s.ə.s) gəldi və soruşdu: "Ramazandan başqa nə vaxt oruc tutmağımı tövsiyə edərsiniz?" Peyğəmbərimiz (s.ə.s), "Məhərrəm ayında oruc tut. Çünki o, Allahın ayıdır. Onda elə bir gün vardır ki, Allah o gündə bir qövmün tövbəsini qəbul etmiş və o gündə başqa bir qövmü də bağışlaya bilər" buyurdu.

Bu hədisi açıqlayan İmam Qazzali yazır: "Məhərrəm ayı Hicri ilin başlanğıcıdır. Belə bir ili oruc kimi xeyirli bir ibadətlə başlamaq gözəl olar. Bərəkətinin davamı da daha çox ümid edilər" deməkdədir. Bu gündə orucdan başqa xeyirli, fəzilətli işlər və sədəqə kimi gözəl əməllərin edilməsinin qarşılığı Allah Təaladan ümid edilir. Bir hədisdə belə buyurulur: "Hər kim Aşura Günündə ailəsinə və ev əhlinə ətalar etsə, Cənabı Haqq da bütün il boyu onun ruzisinə bərəkət və bolluq ehsan edər. "Bu ailə məfhumunun içinə qohumlar, yetimlər, kimsəsizlər, yaxın qonşular da daxildir. Lakin, bunun üçün çox israf etmək olmaz. Hər kəs imkanı ölçüsündə əta edər.

Aşura günü tək əhli kitab arasında deyil, Nuh Əleyhissalam dövründən müqəddəs olaraq bilinir, İslamdan əvvəlki Cahiliyyə dövrü Ərəbləri arasında İbrahim Əleyhissalamdan bəri müqəddəs bir gün olaraq bilinir və oruc tutulurdu.

Lalə Əhmədova

Hz. Mariya

Hz. Mariya cariyə ikən iman edən xanım səhabələrdəndir. Misir hökümdarı Mukavkısın Peyğəmbərin İslama dəvət üçün göndərdiyi məktubuna yazdığı cavabla birilkdə verdiyi hədiyyələrdəndir. Hədiyyə edildiyi il hicri 7-ci il idi.

Hz. Mariya Misirin Said bölgəsindən Nil çayının şərqində olan Hanf deyilən kənddəndir. Kiçik yaşda Mukavkısın sarayına gətirilmişdir.

Hz. Mariya, Mədinəyə gəldikdən sonra Allah Rəsulunun şirin söhbətlərini dinləmiş, Onun təvazökar davranışlarından təsirlənmişdir. Peyğəmbərin ev işlərində xanımlarına kömək etməsinə və sadə həyat sürməsinə heyran olaraq ədəb, nəzakət və insani davranışlar onun könlünün İslama verməsinə vəsilə oldu. Heç kimsənin məcburiyyəti altında qalmadan öz inancını yaşama imkanı tapdı. Bu sərbəstlik və azadlığı qarşılığında öz istəyi ilə müsəlman oldu.

O, iman etməklə böyük dərəcələrə nail oldu. Peyğəmbərimiz onun üçün Mədinənin kənarında bir ev tikdi. Sevgili Peyğəmbərimizə bir nur övlad dünyaya gətirdi. Hz. Xədicə anamızdan sonra uşaq sahibi anamız oldu. Cariyəlikdən qurtarıb azadlığına qovuşdu və möminlərin anası olma şərəfini əldə etdi. Mariya, oğlu İbrahimi dünyaya gətirdiyində ümmül-vələd statusunu qazanmışdır. İbrahim Mədinə kənarında yerləşən Avali adlı kəndə adət üzrə süd anaya verildi. Peyğəmbərimiz tez-tez oğlunu ziyarət edib şəfqət və mərhəmətlə sevərdi.

Gün keçdikcə uşaq böyüyürdü. Ancaq qədərin qərib bir əksidir ki, könül çiçəyi İbrahim xəstələnib sürətlə zəyifləməyə başladı. Mariya anamızın qoynunda can çəkişən övladını Rəhmət peyğəmbəri qucağına alıb bağrına basdı. Saçlarını oxşayarkən gözləri doldu. Dərin bir hüzün içərisində:

Hz. Mariya, Mədinəyə gəldikdən sonra Allah Rəsulunun şirin söhbətlərindən istifadə etmiş, Onun mütəvazi davranışlarından təsirlənmişdir.Ev işlərində digər xanımlarına kömək etməsinə və sadə həyat sürməsinə heyran olaraq ədəb, nəzakət və insani davranışlar onun könlünün İslama verməsinə vəsilə oldu.

" Ey oğlum! Allahdan gələn bir şeyə qarşı ola bilmərik. Ey İbrahim! Əgər sonrakılar əvvəl gələnlərə qovuşmasaydılar, daha çox hüzün yaşayardıq. Biz sənin ayrılığına görə çox qəmginik. Təbii ki, göz ağlar, qəlb məhzun olur. Bununla bərabər Rəbbimizə xoş gəlməyəcək bir şey söyləmərik!"- buyurdu. Sonra Mariya anamıza doğru baxdı və ona təsəlli verdi.

Rəhmət peyğəmbərimizin mərhəmət damarları dolmuş və daşmış, gözlərindən inci dənəsi kimi yaşlar axmağa başlamışdı. Bu halı görən Abdurrəhman İbni Avf (r.a):

"Ya Rəsulullah! Sizdə ağlayırsınız? "- dedi

Peyğəmbərimiz də:

"Mən sizə ağlamağı qadağan edirəm. Göz yaşarır, qəlb məhzun olur. Bu insanın əlində, iradəsində deyildir. Amma səsli ağlamaqdan, fəryad edib üsyan etməkdən və cəhalət adətlərindən sizi çəkindirirəm, "- deyə cavab verdi.

İbrahimin doğumu Peyğəmbərimizi və müsəlmanları necə sevindirmişdirsə, vəfatı da o dərəcədə hüzünləndirmişdir. Eyni gün nur üzlü uşağının namazını qıldıran Sevimli Peyğəmbərimiz oğlu İbrahimi öz əli ilə Bakı qəbirstanlığına dəfn etdi. Qəbrinin üzərindəki torpağı xəfifcə açdı və su tökdü.

Baş tərəfinə büyük bir daş qoydu.

O gün Günəş tutulmuş hər tərəf qaralmışdır. Bu hali bəziləri İbrahimin ölümünə bağladılar və: " Günəş, İbrahimin ölüdüyü üçün tutuldu " dedilər. Bu sözləri eşidən Rasuli Əkrəm (s.ə.s):

"Günəş və Ay Allahın ayətlərindən iki işarədir. Nə kimsənin ölümü, nə də doğumu üçün tutulmazlar ", buyurdu.

Hz. Mariya (r.a), övladının ölümü üzərinə evinə çəkildi. Səbir etməkdən başqa çarəsi yox idi. Oğlunun qəbrini ziyarət edərək dərdini unutmağa çalışırdı. Bir müddət sonra Allah Rəsulu (s.ə.s.) Cənabı-Allaha qovuşdu. Bundan sonra Mariya anamız tamamilə tənhalığa çəkildi.

O, çox sakit həyat yaşadı. Səssiz və öz halında olmağı sevərdi. Bunun üçün özündən hədisi-şərif rəvayət olmamışdır.

Hz. Ömər(r.a.) dövründə hicrətin 16-cı ilində vəfat edən Hz. Mariya anamızın cənazə namazını şəxsən xəlifə qıldırdı. Bakı qəbirstanlığında dəfn edildi. Cənabı Haqdan Şəfaətini diləyirik. Amin!



Mətanət KƏRİMOVA

SABAH GECDİR ARTIQ

Həyatımız boyu edəcəyimiz çox şeyə hələ tezdir deyib, qarşımızdakı günləri buraxdıq. Çox keçmədən gördük ki, günlər yerini illərə vermiş, qarşımızdakı illər keçirdiyimiz illərdən az qalmışdır. Ona görə həyatda hər zaman gecikdiyimizin şahidi olduq. Bu gün görəcəyimiz işləri sabahlara keçirdikcə, onların unudulduğunun fərqinə vardıq. Amma buna bir gün son deməliyik. Bəlkə bu gün, bəlkə də elə indi. Bir şeyi unutmamalıyıq ki, içərisində olduğumuz hər bir zaman, görəcəyimiz işə ən münasib bir vaxtdır. Hələ heç bir şey gec deyildir. Əgər bir şeylər öyrənməmişiksə indi öyrənməyə çalışaq. Gəlin birgə başlayaq.

Sevməyi öyrən: sevdikcə varlığının kainatla bütünləşdiyini hiss edəcəksən. Sevdikcə özünü özündən yüksəyə daşıyacaqsan, sevdikcə qəlbinə yeni və sonsuz qanadlar taxacaqsan, sevdikcə qəlbin bir mavi dənizə dönəcək, səni heç tanımadığın sahillərə aparacaq. Sən sevdiyinin sevgiləri altında yeni bir dünya qazanacaqsan. Elə bir dünya ki, kin, nifrət və düşmənçiliklərdən uzaq, dərd və kədərlərdən xali olacaq. Hər kəs səni qarşılıqsız sevgin üçün qarşılıqsız sevməyə başlar. Sevginin qarşısında minlərlə bağlı qapılar açılar.

Bağışlamağı öyrən: bağışladıqca dostlarının sayını on dəfələrlə artıracaqsan. Bağışlamaq qəlbinin yükünü azaldacaq. Bağışlayınca qəlbinə batan tikanlar gülə dönəcək, bağışlayınca öncə özünü bağışlamış kimi olacaqsan, nifrətin və kinin yükünü çiyinlərindən atmış olacaqsan. Bu dünyada xoşbəxt yaşamağın



əsas qaydalarından biri odur ki, nə sən kimsədən inciyəcəksən nə də kimsə səndən inciyəcək. Elə bir həyat yaşayacaqsan ki, kimsənin xətrinə dəyməyəcəksən. İnsanlarla elə davranacaqsan ki, ətrafındakılar səndən incik olmayacaqlar.

Peşman olmaqdan qorxma: peşman olduğunu etiraf etdikcə xətalarının kiçik, bağışlana biləcək parçalara bölündüyünü hiss edəcəksən. Peşmalığın sənə mənliyini və şəxsiyyətini tanıdacaq. Peşmanlıq hissini nəzərdə tutduğun müddətdə zərərin yarısından dönməyin ləzzətini yaşayacaqsan. Peşmanlıq səmimiyyətin imtahanıdır. Səmimiyyəti olmayanlar peşman olmazlar, peşman olmayanlar səmimiyyət qazana bilməzlər.

Xatırlamağı öyrən: xatırladıqca sevgilərin acı köklərini tapıb onlardan hüznü uzaqlaşdıracaqsan. Hər zaman sənə edilən yaxşılıqları xatırla. Sənə qarşı edilən pislikləri ağlından belə keçirmə. İçində uşaqlığını yaşat, uşaqlığını xatırla ki, qayğısız yaşadığın anları yenidən yaşaya biləsən.

Dəyər verməyi öyrən: dəyər verdikcə sevgi dənizlərini tapıb onların xoşbəxtliyi artırdığının şahidi olacaqsan. Dəyər vermədən keçirdiyin günün günəşi heç doğmamış kimidir. Dəyərini bilmədiyin əşya sənindki deyil. Dəyərini bilmədiyin dostların sənə görə heç yaşamamış kimidir. Dəyər verməyi öyrəndikdə həyatın qiymətini fərq edəcəksən, daha yavaş yeriyəcəksən, amma ayaqlarını yerə bərk basacaqsan. Sən dəyər verdiyin müddətcə başqaları yanında dəyərli olacaqsan.

Üzr istəməyi öyrən: üzr istədikdə nifrətin və hirsin sonsuzluğa bölündüyünü, beləliklə, onun sıfıra yaxınlaşdığını görəcəksən.

Kövrəlməyi öyrən: qəlbinə hüznün enməsinə icazə ver. Bütün xoşbəxtliklərin və zövqün sonunda bir ayrılıq var. Hamımız ayrılıqların mühasirəyə aldığı bir arada yaşayan fanilərik. Hüzn faniliyin incə sızıntısını qəlbinə hiss etdirdiyi, səni kövrəltdiyi üçün səni əbədiyyətə yaxınlaşdıracaq. Hüznü öldürsən, ölümü anlaya bilmədiyin kimi, həyatı da anlaya bilməyəcəksən.

Bir gün öləcəyini bil: mütləq öləcəksən və öldüyün gün anlayacaqsan ki, yaşadığın bu həyat nə qədər böyük bir tam olsa da, o xırda hissələrdən ibarət imiş. Sonda o da sıfıra bərabər olur. Ona görə də yaşadığın o tamın üzərinə sonsuzluğu özündə saxlaya bilən bir şeylər qoymaq lazımdır. Sənin əlində sıfırdan başqa bir şeyin yoxdur.

Hər gün yenidən oyan: oyanmağı, sadəcə, gözünü açmaq kimi qiymətləndirən üçün günəşin doğması adi bir hadisədir. Heyranlıq duyğusunu hər gecə iki göz qapağının altında gizlətdiyi gözü kimi daim yuxuda gizlədənlər üçün günəşin doğuşu sabahın qaranlığıdır. Aç gözlərini, aç könlünü, indi burada var olduğunun fərqinə var, yaradıldığının fərqinə var. Buraya, bu sabaha bir insan olaraq göndərildiyini bil. Bu sabahın sənin üçün açıldığının fərqinə var. Oyan, çünki Günəş sənin üçün doğur...

ÜRƏKLƏRDƏKİ GÖZƏLLİKLƏRİ YOX EDƏN HƏSƏD

Bir kimsədə həsəd illətinin mövcudiyyatını göstərən ilk əlamət, həsəd etdiyi kimsədən nemətin yox olmasını arzu etmək, nemətin zavalını (yox olmasını) gördüyü zaman isə ürək rahatlığı və sevinc duyaraq bir bayram havası içində yaşamaqdır.

Allah Təala insanı "əhsəni-təqvim", yəni ən gözəl bir yaradılış ilə xəlq etmiş, onu "qulluq" ilə mükəlləf qılmışdır. Bu qulluq vəzifəsini gerçəkləşdirə biləcəyi vəsfləri də ona lütf etmişdir. Fəqət dünya həyatındakı "imtahan" sirrinə görə insana bu rəhmani vəsflərlə birlikdə qulluq vəzifəsinə mane olacaq nəfsani təmayüllər də verilmişdir. Bu ilahi imtahanda müvəffəq olmaq istəyən bir qul nəfsani mənfilikləri eynən buza gömülən bir ilan kimi hərəkətsizliyə məhkum edərək bütün hal və davranışlarına rəhmani təmayülləri qalib qılmaq məcburiyyətindədir.

İnsanın dünya imtahanında özündən uzaqlaşdırılması lazım gələn ən məlun mənfiliklərdən biri də ürəklərdəki bütün gözəllikləri yandırıb yox edən "həsəd" xəstəliyidir.

Həsəd ilahi təqsim nəticəsində başqalarına lütf edilən nemətlərə qarşı qəlbin etirazıdır. Qəlblərdə nemət sahiblərinə qarşı duyulan qısqanclıqlar, həsəd xəstəliyinin başlanğıcını, hətta irəlilədiyini bildirən ilkin əlamətlərdəndir və eyni zamanda qədərə qarşı duyulan bir üsyandır.

Həsədi bir binaya bənzətsək, onun ən mühüm tikinti materialları fəsad və nifaqdır. Təməlində isə eqoistlik, hər

kəsdən baş olma sevdası, mənfəət, ehtiraslar, özünü göstərmə arzusu, təkəbbür və xudbinlik kimi qaba əxlaqsızlıqlar dayanır.

Həsədin kökləri insanın daxili aləminin dərinliklərində gizli olduğundan bəzi nəfsinə əsir olmuş kimsələr həsədin içində üzdükləri halda özlərində həsəd olmadığını xəyal edərlər. Uçurumların başında dolandıqlarının fərqində belə deyillər.

Bir kimsədə həsəd illətinin mövcudiyyatını göstərən ilk əlamət, həsəd etdiyi kimsədən nemətin yox olmasını arzu etmək, nemətin zavalını (yox olmasını) gördüyü zaman isə ürək rahatlığı və sevinc duyaraq bir bayram havası içində yaşamaqdır.



Həsədçi həsəd etdiyi kimsəyə qarşı kin, xainlik, intiqam, hiylə, ayıblama və pisləmə kimi xoşa gəlməz hisslər içində çırpınıb durar. Fani ömrünü xülyalar və quruntular içində ziyana uğradar. Başqa sözlə, ətrafına zəhər saçar.

Həzrət Mövlana insanın daxili aləmindəki bu iyrənc və həlakedici vəsfi parlaq bir misalla belə hekayələşdirir:

Bir padşah iki kölə satın almışdı. Onların haləti ruhiyyələrini anlaya bilmək üçün ilk öncə birinci kölə ilə söhbətə başladı. Padşahın suallarına kölə elə dolğun cavablar verirdi ki, başqaları bu cavabları ancaq uzun-uzadı düşündükdən sonra cavablandıra bilirdi. Padşah bu xidmətkarı anlayışlı, zəkalı və dadlı dilli görüncə ondan çox məmnun qaldı.

Sonra o biri köləni yanına çağırdı.

İkinci kölə padşahın hüzuruna gəldi. Kölənin xəstəlikdən ağzı qoxuyurdu və dişləri də baxımsızlıqdan qapqara olmuşdu. Padşah bu kölənin zahiri görkəmindən çox xoşlanmasa da yenə də onun bilmədiyi hal və vəsfləri öyrənmək və onun sirlərinə vaqif olmaq üçün onunla söhbətə başladı:

- Bu geyim-keçimlə, bu rahatsız ağızla uzaqda dayan; fəqət çox da uzağa getmə. Öncə ağzının dərdinə bir şəfa tapaq. Sən sevimli bir kimsəsən, biz də hünərli bir həkimik. Səni xor görmək və gözdən salmaq bizə yaraşmaz. Otur orda, biriki hekayə söylə də ağlının dərəcəsini anlaya bilək, - dedi.

Padşah daha öncə söhbətləşdiyi birinci köləyə sarı dönərək:

- Haydı! Sən də hamama get gözəl bir şəkildə yuyun, -dedi.

Yoldaşı getdikdən sonra danışdırmaq istədiyi ikinci köləyə xitabən onu sınamaq üçün:

- Səndən öncə söhbət etdiyim yoldaşın sənin haqqında pis sözlər söylədi. Elə görürəm ki, sən onun söylədiyi qədər mənfi bir adam deyilsən. O, həsədçi kimsə hardasa bizi səndən soyutmağa çalışırdı. Yoldaşın sənin haqqında "O, oğrudur, doğru adam deyildir, mənfi kimsələrlə oturub-qalxır, iffətsizdir... "" dedi. Sən onun haqqında nə deyə bilərsən?

İkinci kölə bu sözlər qarşısında padşaha:

- Yaxşı düşünən, doğru söyləyən o yoldaşa mənfi mənalı heç bir söz deyə bilmərəm. Əksinə, onun sözləri səbəbilə özümdə bənzəri qüsurların ola biləcəyini düşünüb halımı islaha çalışaram. Padşahım! Bəlkə də o, məndə bir çox ayıblar

görmüşdü ki, mən onların fərqində belə deyiləm... -deyə cavab verdi.

Padşah köləyə:

- O sənin qüsurlarını anlatdığı kimi indi sən də onun qüsurlarını anlat! -deyincə kölə padşaha bunları söylədi:

- Padşahım! O, mənim doğrudan da səmimi bir yoldaşım olmaqla yanaşı, qüsurlarını söyləməyimə mənim könül dünyam mane olar. Onun üçün mən ancaq bunları söyləyə bilərəm. Onun qüsuru məncə qusur deyil, fəzilətdir! O, sevgi, vəfa və insanlıq örnəyidir. Onun halı doğruluqdur, zəkadır, dostluqdur! O elə comərddir ki, lazım gələrsə canını belə istədiyi adamın uğrunda qurban verər. Qədər yoldaşımın bir vəsfi də özünü bəyənən bir kimsə olmamasıdır. O hər kəslə rahatca dolanır, gəl ki, öz nəfsinə qarşı pisdir.

Həsədin başlanğıc tarixi insanlıq tarixi qədər qədimdir. Nə qədər ibrətlidir ki, ən qiymətli kimsələr tarix boyunca həsədçilərin hədəfi olmuşlar.

Padşah bu cavab qarşısında köləyə:

- Yoldaşını mədh etməkdə çox da irəli getmə, onu öyərkən özünü də öyməyə çalışma. Çünki mən onu imtahana çəkərəm də, sonra sən utanarsan, -dedi.

Kölə bunu eşidincə dedi:

- Xeyr. Onu öyməkdə həddimi aşmadım. O dostumun bütün xasiyyəti söylədiklərimdən qat-qat daha artıqdır. Qədər yoldaşımın vəsfləri haqqında bütün bildiklərimi söylədim. Fəqət, ey kərəm sahibi padşahım! Söylədiklərimə inanmırsan. Mənim əlimdən nə gələr?! Mənim daxili dünyam o dost haqqında fikirlərimi belə ifadə etməyə məni məcbur edir!..

O biri kölə hamamdan çıxınca padşah təkrar onu hüzuruna çağırtdı:

- Həmişə təmizlikdə! Əskilməyən nemətlərə rast gələsən! Fəqət yoldaşının söylədiyi pis xasiyyətlər səndə olmasaydı, nə gözəl olardı! O zaman gözəl üzünü görən kimsələr sevinər, nəşələnərdi. Səni görmək bütün dünya mülkünə dəyərdi! -dedi.

Kölə dedi ki:

- Padşahım! O dostumun mənim haqqında anlatdığından bircəsini lütfən mənə söyləyin!

Padşah:

- O, öncə sənin ikiüzlülüyünü anlatdı. Dedi ki, sən görünüşcə dəva, həqiqətdə isə başdan ayağa bəladan ibarət birisisən...

Yoldaşının onun haqqında pis sözlərini padşahdan dinləyən kölənin öfkə dənizi qabardı, ağzı köpükləndi, üzü qızardı. Artıq davam gətirə bilməyəcək bir hala çatdı. Dedi ki:

- O, əvvəllər mənə dost idi, fəqət ağzı pozuğun biridir. Qıtlığa düşmüş köpək kimi çox zaman pislik yeyərdi.

Yoldaşını çəkişdirmək üçün kölə belə dil-dil ötməyə və daxili aləmindəki çirkinlikləri saxlamayıb ortaya tökməyə başladı. Bunu eşidincə padşah:

- Artıq yetər! -deyərək əli ilə onun ağzını tutdu və ona xitabən belə dedi:

- Bax, imtahan sayəsində sizin aranızdakı fərqi artıq görmüş oldum. Onun sadəcə maddi bir rahatsızlıqdan dolayı ağzı qoxuyur. Fəqət sənin isə ruhun qoxuyur! Ey ruhu qoxumuş kimsə, artıq sən məndən uzaqda dur. Bundan belə yoldaşın sənə amir olacaq: sən də onun əmrlərini yerinə yetirəcəksən. Ondan

ədəb, insanlıq və danışmaq mədəniyyətini öyrən! Onun fəzilətlərindən ibrət al. Həsədi tərk et. Sən bu həsəd ilə belinə daş bağlanmış bir zavallı kimsəsən: bu daşla nə üzə bilərsən, nə rahat yeriməyi bacararsan...

Göründüyü kimi, davranışlar fərdin iç dünyasını və şəxsiyyətini əks etdirən bir ayna hökmündədir. Bir mənfəət ovçuluğu və ya həsəd səbəbilə kimsənin sürükləndiyi mənfi davranışlar bir ürək qrafiki kimi onun könül aləmini sərgiləyir.

Mövlana Həzrətləri bu qissədən layiqi ilə hissə ala bilməyimizi arzulayaraq aşağıdakı nəsihətlə bizə müraciət edir:

"Ey bu dünyaya ram olan, daxili dünyasını unudan qafil! Bilmirsənmi ölüm günündə bu duyğuların heç birisini düşünə bilməzsən. O anda həsəd çəkməkdən vaz keçsən belə daha əməlin bir işə yaramaz. Məzarda bu gözlərə torpaq dolar. Ancaq sən təmiz bir ruha sahibsənsə, könlün sənə yoldaş olar. Onun üçün özünə bir bax! Məzarını aydınladacaq ruhani bir ruhun, feyzlə daşan bir könül gözün varmı? Sən sənə əmanət edilən cövhəri, yəni o ölümsüz ruhun cövhərini əldə etməyə çalış. Onun üçün fəzilət sahibi olmağa çalışıb həsəddən uzaq dayan. Yenə çoxlu xeyirhəsənət və saleh əməllər gör ki, o gözəlliklərlə Haqqın hüzuruna vara biləsən!"

Həqiqətən, həsəd, həsəd ediləndən çox həsəd edənə zərər yetirən mənəvi bir xəstəlikdir. Hətta bu zərər şəxsin dininə zərər yetirəcək dərəcədə faciəli bir aqibətlə nəticələnə bilər. Necə ki ilk zamanlar Musa əleyhissalamdan sonra Tövratı ən yaxşı oxuyan və saleh bir mömin olan Harun axır ömründə mübtəla olduğu həsəd səbəbilə imanını belə itirərək bu fəlakətin bariz bir misalı olmuşdur. Çünki o sahib olduğu sərvət və səltənətlə təkəbbürlənib özündən çıxaraq Hz.Musanın mövqeyinə qarşı duyduğu həsəd nəticəsində ilahi intiqama düçar oldu. O güvəndiyi, sığındığı, dayandığı saray və xəzinələrlə birlikdə yerin dibinə keçdi. Əbədi aləmin füqarasından oldu.

Həqiqətən, həsəd, həsəd ediləndən çox həsəd edənə zərər yetirən mənəvi bir xəstəlikdir. Hətta bu zərər şəxsin dininə zərər yetirəcək dərəcədə faciəli bir aqibətlə nəticələnə bilər.

Hz.Peyğəmbər (s.ə.s) həsəd, müsibət və mənəvi xəstəlikləri bir hədisi şərifində belə ifadə etmişdir: *"Sizə keçmiş ümmətlərin xəstəliyi sirayət etdi: bu, həsəd və qəzəbdir. Bu yoxedicilik, saçı dibindən təraş etmək deyildir. Biləsiniz, bu yox etmək dini yox etməkdir. Dini yox etməyə aparıb çıxardar"* (Tirmizi, Sifətül Qiyamə, 57)

Həsədin başlanğıc tarixi insanlıq tarixi qədər qədimdir. Nə qədər ibrətlidir ki, ən qiymətli kimsələr tarix boyunca həsədçilərin hədəfi olmuşlar.

İlk həsəd və təkəbbür şeytanın Adəm əliyhissalam qarşısında mənliyə qapılaraq Allahın əmrini icra etməməsi ilə özünü göstərmişdir. Ondan sonra Adəmin asi oğlu Qabilin təqva sahibi olan saleh qardaşı Habili qətl etməsi, Yaqub əleyhissalamın qanlı göz yaşları tökməsinə səbəb olan Həzrət-Yusifin qardaşları tərəfindən quyuya atılması və buna bənzər hadisələr könüllərdə alovlanan həsədin bir nəticəsi olmuşdur.

Məhv olan ailələr cəmiyyətlər və

məmləkətlərin qədim xarabələri, həsəd səhnələri ilə doludur. Həsəd fərdlərdən başlayaraq qədəmə-qədəmə bütün bir millətə yayılaraq yaxan-yıxan müsibət səbəbidir.

Hədisi-Şəriflərdə buyurulur:

"Heç vaxt, həsəd etməyin! Çünki həsəd, atəşin odunu yediyi kimi savabları və yaxşılıqları yeyib bitirər". (Əbu Davud, Ədəb,44; İbn Macə, Zühd, 22)

"İnsanlar bir-birlərinə həsəd etmədikcə daimi bir feyzü-bərəkət içində yaşayarlar".

"Bir-birinizə kin bəsləməyin, həsəd etməyin, bir-birinizə arxa çevirməyin, bir-birinizlə münasibətinizi kəsməyin, ey Allahın qulları, qardaş olun!" (Buxari, Ədəb, 57)

Digər tərəfdən, həsədə məruz qalan bir kimsə də pisliyə pisliklə müqabilə etməməli, üzülüb hirslənmək yerinə əsil həsəd edənin halına acımalıdır. Ayrıca öz məzlumiyyətini, səbr, xoşluq və təmkin ilə əcr qazanmağa vəsilə olmalı, bu durumdan belə qazanclı çıxmağa çalışmalıdır.

Həzrət-Mövlana bu nöqtəni təşbih ilə nə gözəl ifadə buyurur görün!

"Gül o gözəl qoxunu tikan ilə xoş keçindiyi üçün qazandı. Bu həqiqəti güldən də eşit. Gör gül nə deyir:

"Tikanla bərabər olduğum üçün nədən qəmə düşməliyəmmiş?! Nədən özümü kədərə qərq etməliyəmmiş?! Mən ki, gülməyi o pis xasiyyətli tikanın bərabərliyinə dözdüyüm üçün əldə etdim. Onun vəsiləsi ilə aləmə gözəlliklər və xoş qoxular dağıtmaq imkanına qovuşdum..."

Allah Təala lütf etdiyi nemətlərə qənaət edərək halına razı olan yüksək əxlaq sahibi qullarının gözəl hallarından könüllərimizə qissələr nəsib eyləsin! Başqalarının əlindəki nemətlərə göz dikərək, dünyanın aldadıcı oyuncaqlarına, gəlkeç sevdalarına, ovudan nəşəli görüntülərinə, ehtiras və həsədin aldadıcı iqballarına könül qapdıranların aqibətindən və həsədçilərin həsədindən bizləri mühafizə buyursun!

Amin!..



Betül KARABACAK

Hz.Hüseyn

Həzrət Məhəmməd Peyğəmbərin (s.ə.s) sevimli nəvəsi Hz. Hüseyn (r.a) 626-cı ildə Mədinə şəhərində dünyaya göz açmışdır. Sevimli peyğəmbərimizin tərbiyəsilə böyüyüb boya-başa çatmış Hz. Hüseyn öz parlaq həyatı ilə insanlığa iftixar gətirən, qəhrəmanlıq nümunəsi olan bir öndər kimi bəşər tarixinə düşmüşdür.

Muaviyənin ölümündən sonra Yezid əmisi oğlu Vəlidə məktub yazıb Hz. Hüseyndən beyət almasını tələb etdi. Kufəlilər ona məktub yazaraq rəhbərlik üçün Hz.Hüseyni Kufəyə dəvət etdilər, o da Kufəyə yola düşdü. Məhərrəm ayının 9-u Kufə ordusu Hz. Hüseynə ya təslim olaraq Yezidə beyət etməyi, ya da döyüşməyi təklif edir. Hz.Hüseyn şəhid olmağı Yezidə beyət etməkdən üstün bildi və "Bizim kimilər Yezid kimilərə beyət etməz" deyə buyurdu. Hz.Hüseyn gecəni yaxınları ilə birlikdə ibadət etmək üçün qoşundan bir günlük möhlət istəyir. Səhabələr gecəni səhərədək namaz qılır, dua edir, bir sözlə Allahı zikr etməklə başa vururlar.

Aşura günü (Məhərrəmin 10-u) zahirən iki müsəlman dəstə qarşı-qarşıya dayandı. Hər iki tərəfdən "Allahu Əkbər" sədaları ucalsa da, dəstələrdən biri İslama xəyanət edərək ziyana uğrayanlar, digəri isə Peyğəmbərin haqq yolunun keşiyində dayananlar idi. Bir tərəfdə Allah aşiqləri öz sevdikləri Allaha sevgilərini bəyan edir, digər tərəfdə isə İslamın həqiqi prinsiplərinə qarşı çıxaraq Peyğəmbər ailəsini qətlə yetirməyə hazır olan münafiqlər dəstəsi dayanırdı... Döyüşdən əvvəl Hz. Hüseyn son dəfə olaraq Peyğəmbərin (s.ə.s)

əbasını geyinib düşmənə tərəf yollandı və özünün son xütbəsini oxudu. Döyüşdə Hz.Hüseynin bütün sadiq səhabələri bir-bir şəhid edildi. Hətta düşmən tərəf Hz.Hüseynin qucağındakı südəmər körpə - Əli Əsgəri belə öldürməkdən çəkinmədilər. Onlar İmam Hüseynin başını kəsərək nizəyə taxdılar və təhqiramiz şəkildə Şam şəhərinə xəlifə Yezidin hüzuruna apardılar. O qanlı faciədən sonra Peyğəmbər ailəsinin sağ qalan üzvlərini əsir götürərək əl-qolları zəncirli Şama gətirdilər. Kərbəlada baş verən bu qanlı faciənin müsəlmanlar üçün böyük nəticələri oldu. Hz. Hüseyn kiçik bir dəstə ilə böyük bir şər imperiyasının qarşısında "yox" deməyi bacardı. O haqq uğrunda, İslam uğrunda mübarizəyə qalxdı, bu yolda malından, canından keçdi, ən yaxın silahdaşlarını itirdi, ailəsinin əsir düşməsinə razı oldu, lakin öz əqidəsindən dönmədi. O, azadlıq məktəbinin bünövrəsini qoydu və öz qanıyla əbədi olaraq azadlıqsevər insanların qəlbinə azadlıq toxumunu səpdi. Bəlkə də, tarixdə ilk dəfə olaraq məğlub .edən deyil, məğlub olanlar qələbə çaldılar.

Sevinc VƏKİLOVA

QURBANIN MAHİYYƏTİ

Qurban bayramının tarixi olduqca qədimdir. Bu tarix ta Adəm (ə.s)a qədər uzanır. Qurban Bayramı Müsəlmanlar tərəfindən Hicri Təqvimə görə Zilhiccə ayının onuncu günündən etibarən dörd gün boyunca qeyd olunan dini bir bayramdır. Zilhiccə ayının onuncu, on birinci və on ikinci günlərinə Əyyamı nəhr (Kəsmə günləri) və bir əvvəlki gün olan Zilhiccə ayının doqquzuncu gününə isə Ərəfə günü deyilir. Qurban Bayramı, eyni zamanda İslam aləminin hər il Məkkədə həcc fərzlərini ifa etdikləri vaxtdır. Dini qurban kəsmə mərasimi İslamdan da əvvəl mövcud olub, lakin o vaxtlar günahdan təmizlənmək, qəzəblənmiş tanrının könlünü almaq və s. nəzərdə tutulurdu. Hicrinin (Məhəmməd Peyğəmbərin Məkkədən Mədinəyə köçməsinin) ikinci ilindən sonra dini qurban kəsmənin İslam aləmində başqa məqsədləri və səbəbləri yaranmışdı. Belə ki, dini qurban kəsmə islam aləmində böyük ruh yüksəkliyi, dindarlıq, xeyriyyəçilik, başqalarına kömək etmək kimi əlamətlərə yiyələndi. Dini qurban kəsmə İbrahim (ə.s) Peyğəmbərin həyatında baş verən əhvalatdan sonra yaranmışdır. Belə ki, yuxuda Allah Təala İbrahim (ə.s) peyğəmbərə oğlu İsmayılı qurban verməyi (onların Allaha imanını yoxlamaq üçün) əmr edir. İbrahim əsil dindar kimi Allah Təalanın əmrini yerinə yetirməyə hazır idi, İsmayıl özü də qurban olmağa razılaşır. İbrahim Peyğəmbərin oğlunu Allaha qurban etmək istəməsi

Allaha qəlbən yaxın və sadiq olduğunu sübut etmək istəyən İbrahim Peyğəmbər oğlu İsmayılı qurban kəsməyə hazır idi. Lakin uca Allah bunu öz elçisinə rəva bilmədi və qurbanlıq üçün ona bir qoç göndərdi. Buna görə də Qurban bayramında kəsilən qurbana "İsmayıl qurbanı" da deyirlər.

Çox sevdiyi balasını Allah yolunda qurban verməyə hazır olması peyğəmbərin Allah qarşısında imanının, səmimiliyinin və mütiliyinin bariz sübutudur. Odur ki, din tarixində dərin iz salmış bu hadisə Allaha inamın, dərin etiqadın nümunəsidir. Bu hadisə onu göstərir ki, insanlar Allahı sonsuz imanla sevməli və öz sevgilərində bu cür səmimi olmalıdırlar. Çətin anlarda Allahı da yada salıb, yaxşı zamanlarda Onu unutmaq möminə yaraşan hərəkət deyil! Bu rəvayətin başqa bir fəlsəfi-əxlaqi mənası ondan ibarətdir ki, İslamda insanın Allah yolunda qurban kəsilməsi qəbul olunmur. İslama qədər bir çox dinlərdə insanları qurban vermə ayinlərinə rast gəlmək mümkündür. Məsələn, atəşpərəstlər insanı odda yandırırdılar. Onlar bu yolla Allaha yaxın olduqlarını göstərirdilər. Qədim Çində də insanları tanrılara qurban vermək adəti var idi. Bu ölkədə təbii fəlakətlərdən, daşqınlardan hifz olunmaq üçün uşaqları suya atırdılar.

Qurani Kərimdə qurban haqqında belə buyurulur:"Rəbbin üçün namaz qıl və qurban kəs!", "De ki: "Mənim namazım da, kəsdiyim qurban da, həyatım və ölümüm də aləmlərin Rəbbi – Allah üçündür", "Biz hər bir ümmət üçün bir qurbangah müəyyən etdik ki, Allahın onlara ruzi verdiyi dördayaqlı heyvanların üstündə (onları kəsdikləri zaman) Allahın adını çəksinlər". Ənəs ibn Malikdən rəvayət olunan hədisdə isə Peyğəmbər imiz (s.ə.s) belə buyurur: "Bayram namazından sonra qurban kəsən ibadətini tamamlamış və müsəlmanların sünnəsinə (yoluna) əməl etmişdir".

Qurban bayramında hər bir imkanlı müsəlman qurban kəsib, onun ətini imkansızlara, kasıblara paylamalıdır. Burda əsas məqsəd dindarlığa nail olmaqdır. Qurani kərimdə : "Allaha nə ət, nə onun qanı çatmır, ancaq sizin dindarlığınız çatır" buyurulub.

İslam dünyasının ən müqəddəs bayramlarından sayılan Qurban bayramı bütün müsəlman ölkələrində təmtəraqla qeyd olunur. Azərbaycan müstəqillik əldə etdikdən sonra Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli "Azərbaycan Respublikasının bayramları haqqında" Qanununa əsasən Qurban bayramı ölkəmizdə də dövlət səviyyəsində bayram edilir.

Qurban bayramında hər bir imkanlı müsəlman qurban kəsib, onun ətini imkansızlara, kasıblara paylamalıdır.
Qurani kərimdə : "Allaha nə ət, nə onun qanı çatmır, ancaq sizin dindarlığınız çatır". buyurulub

Vüsalə MANAFOVA

HARAMLAR SƏBƏBSİZ DEYİL

Bir şeyin halal və ya haram olması, Allahın əmrinə tabedir. Cənabı Haqq, cənnətə layiq bir vəziyyətə gətirmək üçün, insanları imtahana çəkir. Bu səbəblə bəzi əmr və qadağlar qoymuşdur. Əsas olan da bu əmr və qadağanlara itaət etməkdir. Bu prinsiplərin həm insanın şəxsi həyatına, həm də cəmiyyət həyatına bir çox faydaları vardır. Dinimizin qadağan etdiyi xüsuslardan biri də, donuz ətidir. Bu qadağan etmənin, bir çox hikməti vardır. Biz, burada yalnız bir neçəsinə göstərməyə çalışacayıq.

Donuz əti çox yağlıdır. Yeyildiyi zaman, bu yağ qana keçir. Beləcə qan, yağ dənəciklərilə dolur. Qanda çox miqdarda yığılmış yağ damarların sərtləşməsinə, qan təzyiqinin yüksəlməsinə və ürək infaktına səbəb olur. Bundan başqa, donuz yağında "sutoksin" deyilən zəhərli maddə mövcuddur. Bədənə girən bu zəhərli maddələrin çölə atılması üçün, linfa vəzilərinin çox işləməsinə zərurət yaradır. Bu vəziyyət, xüsusilə uşaqlarda linfa düyünlərinin iltihablanması və şişməsi şəklində özünü göstərir. Xəstə uşağın boğaz bölgəsi anormal bir şəkildə şişərək, sanki donuza bənzər bir şəkil alır. Bu səbəblə, bu xəstəliyə "donuz xəstəliyi" (skrofuloz) adı verilib. Donuz ətində bol miqdarda olan sinovyal mayeyə bənzər maddə, kükürd cəhətdən çox zəngindir. Onun qəbulu zamanı, bədənə çox miqdarda kükürd daxil olur. Bu isə qığırdaq, əzələ və sinirlərə oturaraq oynaqlarda iltihablanma, duzlaşma və bel yırtığı kimi müxtəlif xəstəliklərə gətirib çıxarar.

Donuzda, böyümə hormonu da çoxdur.

Doğulduğu zaman bir neçə yüz qram olan donuz balası, altı ayda yüz kiloya çatır. Bu qədər sürətli inkişaf, böyümə hormonunun çoxluğu səbəbiylədir. Donuz ətiylə çox miqdarda alınan böyümə hormonu, bədəndə toxumaların şişkinliyinə və iltihablanmalara gətirib çıxarır. Burun, çənə, əl və ayaq sümüklərinin anormal bir şəkildə böyüməsinə və bədənin yağlanmasına səbəb olur. Böyümə hormonunun ən təsirli yönü, xərçəngin inkişafına zəmin yaratmasıdır. Belə ki, donuz kəsimi ilə məşğul olan insanlar, kişi donuzların müəyyən bir yaşdan sonra mütləq xərçəngə tutulduqlarını ifadə edirlər. Donuz etinin ehtiva

etdiyi hisstonin və imtidazol deyilən maddələr, dəridə qaşınma hissi yaradır. Ekzama, dermatit, neyrodermatit kimi iltihabi dəri xəstəliklərini törədir. Bu maddələr həmçinin; qan çibanı, appendisit, öd yolları xəstəlikləri, damar iltihabları kimi xəstəliklərə tutulma ehtimalını artırır. Bu səbəblə həkimlər, ürək xəstəliklərindən əziyyət çəkən insanlara donuz əti yeməyə qətiyyən icazə vermirlər. Alman həkimi Prof. Reckev "Donuz Əti və insan Sağlamlığı" adlı əsərində bir xatirəsini yazır:

"Müalicə məqsədiylə, bir cütçü ailəsinin evinə getmişdim. Atada, xroniki antroz (oynaq xəstəliyi) və omba oynağı iltihabı vardı. Bundan əlavə, qaraciyəri də narahat idi. Ananın, ayaqlarında əyrilik və əziyyət verici qaşınması olan ekzama vardı. Ailənin qızları isə, ürək çatışmazlığı və romatizmdən əziyyət çəkirdilər. Ən sağlamları görünməsinə baxmayaraq oğulları da, nəfəs yollarının iltihabından sonra ürək çatışmazlığından və qan çibanından şikayətçi idi. Ailənin digər oğlunda isə donuz tüklənməsi xəstəliyi var idi. Bu ferma içində, müayinə əsnasında qəribə bir hadisəyə şahid oldum. Ailənin arasında, iri bədənli bir donuz qalın bir ağac budağına söykənərək kürəyini qaşıyırdı. Xəstələrə, "Oradakı donuzu görürsünüzmü? Onun qaşınmasına və iltihablara gətirib çıxaran maddələri, ətiylə birlikdə siz də yeyirsiniz. Bu maddələr, sizdəki xəstəliklərin yeganə səbəbidir dedim".

Donuz əti ilə insana yoluxan təhlükəli xəstəliklərdən biri də, trişin xəstəliyidir. Donuzlar bu xəstəliyi, trişinli siçan yemək və ya trişinli donuz əti ilə bəslənməklə yoluxurlar. Trişin, donuzlar üçün ağır bir xəstəlik deyildir. Halbuki insanlarda, çox təhlükəli və öldürücü bir təsirə malikdir. Donuz ətiylə alınan trişin qurdları, mədə-bağırsaq yoluyla qana keçir. Beləcə də, bütün bədənə yayılırlar. Trişin qurtları xüsusilə çənə, dil, boyun, udlaq və sinə bölgələrindəki əzələ toxumalarına yerləşirlər. Çeynəmə, danışma və udma əzələlərini iflic edirlər. Bu xəstəliyin ən pis tərəfi isə, qəti bir müalicə şəklinin olmamasıdır.

Donuz, dişisini qısqanmayan bir heyvandır. Donuz əti ilə bəslənən insanlarda, qısqanclıq hissinin zəiflədiyi və ya heç olmadığı müşahidə edilmişdir. İnsan və heyvanlar, yedikləri qidaların az-çox təsirində qalırlar. Məsələn pişik, it, aslan kimi ət yeyən heyvanların yırtıcı; qoyun, keçi, dəvə kimi ot ilə bəslənən heyvanlar isə daha itaətli və yumşaq xasiyyətli olduqları məlumdur. Bu vəziyyət, insanlar üçün də etibarlıdır. Bitki tərkibli qidalarla bəslənənlər, əsasən mülayim; ət və ət məhsullarıyla bəslənən insanların isə daha sərt xasiyyətli olduqları təsbit edilmişdir. Fransız filosoflarından Savorin də bəslənmənin xasiyyətə təsirinə çox əhəmiyyət verərək, "Mənə nə yediyini söylə, sənin kim olduğunu deyim" demişdir.

Donuz əti ilə insana yoluxan təhlükəli xəstəliklərdən biri də, trişin xəstəliyidir. Donuzlar bu xəstəliyi, trişinli siçan yemək və ya trişinli donuz əti ilə bəslənməklə yoluxurlar. Trişin, donuzlar üçün ağır bir xəstəlik deyildir. Halbuki insanlarda, çox təhlükəli və öldürücü bir təsirə malikdir.

Hatice ŞAHİN

TƏBƏSSÜM NİYƏ SƏDƏQƏDİR?

Peyğəmbərimiz (s.ə.s.) "Təbəssüm sədəqədir"- buyurmuşdur. Bu sualı təkrar özümüzdən soruşaq: "Təbəssüm nə üçün sədəqədir?"

İslam dini fərdi deyil, sosial yaşanan bir dindir. Bir müsəlman qarşısındakına sevinc bəxş edəndir. Sevincin ilk əlaməti üzdə olan kiçik təbəssümdür. Bundan başqa təbəssüm iç aləmimizin gözəlliklərinin üzümüzə əks olunmasıdır. Beləcə, bir müsəlman heç tanımadığı birinə belə təbəssümlə: "Məndən qorxma, mənim əlimdən, dilimdən sənə bir zərər gəlməz, əmin ola bilərsən", mesajını verir. İlk anda göstərdiyimiz təbəssümlə Peyğəmbərimiz (s.ə.s.) 1400 il əvvəl Ənsar və Mühacir arasında inşa etdiyi qardaşlıq müəssisəsini qüvvətləndirmiş olarıq.

Təbəssüm elə böyük bir nemətdir ki, bu neməti nə pulla, nə də malla satın ala bilərik. Gözündə dünya mənfəəti silinmiş olan arif bəndələr bu qiymətli xəzinəyə qovuşmuşdular və üzlərindən Peyğəmbər sünnəsi olan təbəssüm heç bir zaman əksik olmaz. Muinüddini Çeşti həzrətləri də bütün haqq dostları kimi mütəbəssüm idi və ariflərin xüsusiyyətlərini sıralayarkən belə buyurmuşdur: " Arifin bir xüsusiyyəti də insanlara qarşı daim gülərüzlü olmasıdır".

Elə insanlar vardır ki, təbəssümü unutmuşlar. Peyğəmbərimiz (s.ə.s.) belə insanlara verə biləcəyimiz ən böyük sədəqənin təbəssüm olduğunu xatırlatmış və təbəssüm edərək təbəssümü unutmuş insanlara sən xatırlat deyə tövsiyə etmişdir.

Davranış mütəxəssislərinə görə, tanışlıq anında 90 saniyə içində qarşısındakı insanın üzərində edəcəyi təsirin yüzdə 90-nı reallaşmış olar. Məkkədən Mədinəyə hicrət edən Peyğəmbərimiz (s.ə.s.)i maraqlanıb gələn yəhudi alimi Abdullah bin Səlam ilk görüşdə bu halın təsiri altında qalmış və: "Bu üz əsla yalan söyləməz",-deyərək iman şərəfinə nail olmuşdur.

Bundan başqa qaş-qabaq tökmək, qəzəblənmək üçün 103 əzələyə, gülümsəmək üçün isə sadəcə 12 əzələyə ehtiyacımız olduğunu bilirdinizmi? Təbəssüm insan olaraq qarşımızdakına verə biləcəyimiz, sərmayəsi sıfır olan, birinə gözəl təsir etmək üçün sehirli bir dərmandır.

Peyğəmbərimiz (s.ə.s.) gülümsəmə-

Təbəssüm elə böyük bir nemətdir ki, bu neməti nə pulla, nə də malla satın ala bilərik. Peyğəmbərimiz (s.ə.s.) belə insanlara verə biləcəyimiz ən böyük sədəqənin təbəssüm olduğunu xatırlatmışdır.

nin sədəqə olduğunu bildirmişdir, özündən keçib qəh-qəhə çəkməyin isə savabı olmayıb, əksinə qəlbi öldürdüyünü başqa hədislərdə görürük.

Mövlana həzrətləri davranışların insanın xarakterini nümayiş etdirdiyini bu sözlərlə bildirmişdir: "İnsanın necə güldüyündən ədəbini, nəyə güldüyündən ağlını anlaram".

Keçici dünya həyatına dəyər verərək süni təbəssümlərə aldanan insanlara son nəfəsdəki təbəssümün dəyərini Ustad Nəcib Fazil bu beyti ilə xatırlatmışdır:

Bu dünyada rəng, naxış, ləzzət, nə varsa küsüm
Gözümdə son mərifət, Əzrailə təbəssüm...

Bu beytləri Həzrəti Mövlananın bu sözləri ilə tamamlayaq:

"Ağıllılar öncədən ağlayar, sonunda təbəssümə qərq olarlar. Axmaqlarsa öncədən qəh-qəhələrə boğular, sonra da başlarını daşlara vuraraq ağlayarlar".

Dinimiz ətaya böyük əhəmiyyət vermişdir. Fəqir insan belə bu dində məhrum qalmaz. İmkanı yoxsa təbəssümü ilə əta edər və sədəqə savabı alar.

Yaxınlarına gözəlliklər bəxş edərək təbəssüm etdirənlər bəzən bir təbəssümlə min kilometr kənarda yaşayan qardaşlarını xatırlayaraq qəlblərdə bu duyğunu yaşadırlar.

Saxta gülüşlərin ətrafı bürüdüyü bir zamanda əsil təbəssümü könüllərdə yaşıllaşdırmaq duası ilə.

NÖQSANDAN DA BETƏRMİŞ

Öz-özümü mənəm çəkən çarmıxa,
Nə biləydim, hökmü verən qədərmiş.
Öz içimdə hakim ilə vəkilin
Gecə-gündüz çəkişməsi hədərmiş.

Çox düşündüm: nədir qəsdim, niyyətim?
Hara çəkir görən məni fitrətim?
Bu dünyadan mənim payım, qismətim
Sevincimdən oğurlanan kədərmiş.

Mən baxmadım nə yada, nə həmdəmə,
Nöqsanımı faş elədim aləmə.
Hey danladım öz-özümü... heç demə,
Mərdliyim də etirafa qədərmiş...

Vicdanımdan sordum: nədir etiraf?
Cavab verdi: bir tövbədir etiraf.
İndi bildim, əməlsiz bir etiraf
Günah kimi nöqsandan da betərmis.

Bəxtiyar Vahabzadə

Elif GÜLDAR

ÜMİD ÇIRAĞINI SÖNDÜRMƏ

Əməlli-başlı özünü itirmişdi. Pərişan vəziyyətdə idi. Neçə ildir ki, dağa-daşa çığırıb-bağırsa da heç birindən bir səda ala bilməmişdi.

Heç birindən cavab gəlmirdi. Nə dağdan, nə də ki, daşdan… Ümid çırağı çox zəifləmişdi.

Bu zaman bir nəfərlə qarşılaşdı. Rastına çıxan da özündən fərqsiz idi. Dərdini ona danışdı:

- Mən bir könül insanıyam. Adəm oğullarının badəm (badam) qovğasında tələf olmasına razı ola bilmirəm. Onları cənnətə daşımaq istəyirəm. Bunun üçün də illər uzunu çığır-bağır edirəm. Yazıram, pozuram, danışıram. Əlimdən gələni əsirgəmirəm, amma nə görən var, nə eşidən, nə də hiss edən. Bu, məni qəhr edir.

Ürəyini açdığı adam ona belə dedi:

- Əgər sən bir könül adamısansa, bilməlisən ki, bu dünya Adəm oğullarının badəm qovğası edəcəkləri yerdir. Onları bundan uzaqlaşdıra bilməzsən. Onları cənnətə daşıma cəhdlərinə gəldikdə isə o mövzuda ümid çırağını canlandır! Doğru söyləməyə davam et! Korlar səni görməyə, karlar eşitməyə, hissiyatsızlar da varlığından xəbərdar olmaya bilərlər. Hər söz bir toxumdur. Sən toxum səpməyə davam et. Fərq edilməmək səni bu qədər üzməsin. Əsla ümid çırağını söndürmə. Sən vəzifənə davam et! Gün gələr səni də görən olar. Eşidən, hiss edən olar. Mütləq olar və o, demək istədiyini bütün insanlığa çatdırar…

AXTARDIĞINI TAPMAQ

Rəvayət olunur ki, vəlilərdən biri həccə getmək istəyir. Bu vəlinin bir oğlu da vardı. Oğlu atasından:

- Hara gedirsən, atacan? –deyə soruşdu. O da:

- Beytullaha gedirəm, cavabını verdi. Uşaq Beytullahı görənin Allahı da görəcəyini zənn etdi:

- Nə olar, atacan, məni də özünlə apar.

- Sən hələ ora gedə bilməzsən.



Bu cavabı alan uşaq ağlamağa başladı. Uşağın ağlamasına dözməyən atası onu da özü ilə apardı. Miqata çatıb ehrama girdilər, təlbiyə gətirərək Hərami-Şərifə daxil oldular. Beytullahı görən kimi uşaq ruhunu təslim edərək yerə yıxıldı. Atası dəhşətlə: “Gözümün işığı

oğlum hardadır?” –dedi. Beytullahın bir küncündən belə nida olundu:

“Sən Beytullahı istədin və tapdın, o isə Allahı istədi və tapdı.”

Uşağı onların yanından apardılar. Yenə başqa bir səs eşidildi:

“O uşaq indi nə yerdə, nə cənnətdə, nə də bir boşluqdadır. O, hər şeyə qadir olan Allahın yanında, sadiqlərin olduqları yerdədir.”

...VƏ DUALARIMIZ...

Mövsum həcc mövsümü, özünü Ona qurban etməyə hazırlıq mövsümüdür. Bu mövsümdə canın və övladın yerinə nəzir edilən qurbanlarımıza vəzifələrimizi yerinə yetirəcəyik. Bəlkə də bu nəzir deyişin simvolu olan qurbanımızı qardaşlarımızla bölüşəcəyik. Qurban sadəcə bir miqdar pul ödəyərək həyata keçirilən vəzifə deyil, böyük bir təslimiyyət və fədakarlığın simvoludur. Qurban ağlı qəlbə təslim etmək və əziz olan candan ən sevgili üçün vaz keçməkdir. Qurbanı müsəlman qardaşları üçün böyük bir sevinc və məhəbbəti paylaşmağın bir əsəri olaraq görməyin həyatımıza yeni bir məna və hiss dərinliyi qatacağı şübhəsizdir.

Qurbanlarımız özümüzü Rəbbimizə həsr edişimizə vəsilə olsun, həcc ibadətlərimiz mübarək olsun. Məhəmməd İqbalın dediyi kimi:

“Hacılarımızın mübarək torpaqlardan ölkələrinə gətirdikləri təkkə, təsbeh və zəmzəmlərlə yanaşı Hz. Əbu Bəkrin sədaqətini, Hz. Ömərin ədalət duyğusunu, Hz. Osmanın həyasını və Qurana bağlılığını, Hz. Əlinin elm eşqini və iman həyəcanını gətirmələrini təmənna edək”. Buna hər birimiz həmişəkindən çox möhtacıq.





Dr. Sevinc ASLANOVA

Qurban

Qurbanın, cəmiyyətdə qardaşlıq, yardımlaşma və birlik ruhunu canlı tutmaqda önəmli bir rol oynayır. Xüsusilə heç ət alma imkanı olmayan və ya nadir hallarda ət alma imkanı tapan yoxsulların var olduğu bir mühitdə qurban ibadətinin çox vacib bir sosial vəzifə daşıdığı, kasıbları sevindirdiyi açıqca görülməkdədir.

İslamda Qurban:

İslama görə qurban, ibadət məqsədi ilə müəyyən vaxtda, müəyyən şərtləri daşıyan heyvanı qaydasına uyğun olaraq Allah (c.c) rızası üçün kəsməkdən ibarətdir. Qurban kəsməyi Allah Təala (c.c.) hər ümmətə əmr etdiyini xəbər verərək belə buyurur: **"Biz hər ümmət üçün qurbangah (yaxud məbəd) müəyyən etdik (və ya hər ümmətə qurban kəsməyi lazım bildik) ki, Allahın onlara ruzi verdiyi (dördayaqlı) heyvanların üstündə (onları kəsdikləri zaman) Allahın adını çəksinlər (bismillah desinlər)..."** (əl-Həcc, 22/34). Peyğəmbərimiz Hz. Məhəmməd (s.ə.s) də qurbanın önəmini bildirmək üçün belə buyurmuşdur: *"Kim maddi imkanı olduğu halda qurban kəsməzsə bizim namazgahımıza yaxınlaşmasın."* (İbn Macə, Edahi 2, Ahməd b. Hanbəl, 2/321.

Qurban kəsmək, İslamın yerinə yetirilməsini tövsiyə etdiyi bir ibadət olmaqla yanaşı fərz dərəcəsində olmayan, ancaq fərzə yaxın (vacib) bir ibadətdir. İslamda qurban, qoyun, keçi, inək, camış və dəvədən olur. Bunların hər birinin özünə görə bəzi şərtləri vardır. Qurban ibadətini təməl ehtiyacları (İslama görə təməl ehtiyaclar, insanın yaşadığı ev, mindiyi maşın, yetəri qədər əşya və baxmaqla məsul olduğu kəslərin bir illik ehtiyacından ibarətdir) və borcundan başqa nisab miqdarı (nisab miqdarı: insanın təməl ehtiyacları və borcundan əlavə 80 qr. qızıl və ya buna bərabər pul ya da mala sahib olması deməkdir) mala sahib olan müsəlmanların

yerinə yetirməsi vacibdir. Zəkat verən müsəlmanın eyni zamanda qurban kəsməsi də lazımdır. Ancaq qurban kəsə bilmək üçün zəkatdakı kimi malın üzərindən bir il keçməsi lazım deyildir.

Qurban kəsən müsəlman hər şeydən öncə Uca Allahın (c.c.) əmrinə boyun əymiş və qulluq borcunu yerinə yetirmiş olur.

Qurban, cəmiyyətdə qardaşlıq, yardımlaşma və birlik ruhunu canlı tutmaqda önəmli bir rol oynayır. Xüsusilə heç ət alma imkanı olmayan və ya nadir hallarda ət alma imkanı tapan yoxsulların var olduğu bir mühitdə qurban ibadətinin çox vacib bir sosial vəzifə daşıdığı, kasıbları sevindirdiyi açıqca görülməkdədir.

Qurban, insanın Allaha (c.c.) yaxınlaşmasına vəsilə olan bir ibadətdir. Qurban sözünün özü də, 'yaxınlaşmaq' deməkdir. Qurban kəsən müsəlman bu vəzifəni yerinə yetirməklə Hz. İbrahim (hz. İbrahimin oğlunu qurban etməyə təşəbbüsü ilə bağlı: əs-Saffat, 37/99-110) kimi Allaha (c.c.) və Onun (c.c.) əmrlərinə olan bağlılığını, lazım gəldiyində Onun (c.c.) rızasını qazanmaq üçün hər fədakarlığa hazır olduğunu göstərmiş olur. Buna görə, bütün ibadətlərdə olduğu kimi, qurbanda da təmiz niyyət və ixlas vacibdir. Belə ki, Qurani Kərimdə də belə buyrulmaqdadır: **"Kəsilən heyvanların nə ətləri nə də qanları Allaha çatmaz. Allaha çatacaq olan yalnız sizin təqvanızdır (səmimi qəlbdən etdiyiniz ibadətdir)."** (əl-Həcc, 22/37.)

Yəhudilik və Xristianlıqdakı qurbanın İslamdakı qurban ilə müqayisəsi:

İnsanlıq tarixi boyunca bütün dinlərdə qurban ibadəti var olmuşdur. Ancaq hər dində istər qurbanlıqlar, istərsə də qurban etmə şəkilləri və qurbanın edilmə məqsədləri baxımından fərqliliklər vardır.

Yəhudilik və Xristianlıqda qurban ibadəti ilə bağlı fərqli anlayış və tətbiqatlar mövcuddur.

Yəhudilikdə qurban:

Yəhudilikdə insanın qurban edilməsindən də bəhsedilməkdədir. (Çıxış, 13/1-2, 11-15,22/28-29, 34/19-20; Təkvin, 22/2.). İnsanın qurban edilmə adəti onlara böyük bir ehtimalla, birlikdə yaşadıqları Sami və Kənan mədəniyyətindən keçmişdir. Məsələn, Bal adındakı büt, təzə ətləri sevməsi səbəbiylə, onun yeməsi üçün uşaqların qurban edildiyi bildirilmişdir. (Bu adət, qədim Misirdə Nil çayına, qədim Slavyanlarda isə Volqa çayına bəzədilərək gənc qızların diri diri qurban verilməsi şəklində özünü göstərmişdir.) Bundan əlavə Tövratda ilk doğulan uşaqların qurban edilməsinə dair qəti əmrlər vardır. Hz. Musa şəriəti ilə uşaqların qurban edilməsi qadağan edilmiş olmasına baxmayaraq (Levililər, 18/21) bəzilərinin bu adəti davam ettirdiyi görülmüşdür. (II. Krallar, 16/3;

Hakimlər, 11/30-31.)

Hz. Musadan (a.s.) sonra Qüdsdəki yəhudi müqəddəs məbədinin də dağıdılmasıyla qurban ibadəti tərk edilmiş, bunun yerinə dua ibadəti gətirilmişdir.

İslamda Yəhudiliyin ilk dönəmlərində olduğu kimi insanın qurban edilməsi ilə bağlı bir əmr və tövsiyə yoxdur. Çünki, İslamda qurban ibadəti, zaman içərisində heç bir dəyişikliyə məruz qalmadan günümüzə qədər davam etmişdir.

Burada bir şeyi də qeyd etmək lazımdır ki, Yəhudi müqəddəs kitabı Tövratda Hz. İbrahimin (a.s.) oğlu Hz. İsmaili (a.s.) deyil, Hz. İshaqı (a.s.) qurban etmək istədiyi qeyd edilsə də, mətni incələdiyimiz zaman bunun sonradan kitaba əlavə edildiyi açıqca görülür. Məsələn, Tövratda Hz. İsmayılın (a.s.) dünyaya gəlməsindən və Hz. İbrahimin (a.s.) o əsnada 86 yaşında olduğundan bəhs edilir (Təkvin 16/15-16). Bundan əlavə Hz. İshaqın doğulduğu əsnada Hz. İbrahimin yüz yaşında olduğu bildirilir (Təkvin 21/5). Tövratın başqa bir yerində isə, "və Allah, biricik oğlunu, yəni sevdiyin İshaqı götürüb Meriya diyarına get və onu orada sənə söyləyəcəyim dağların birisi üzərində qurban olaraq təqdim et! Dedi", cümləsi yer almaqdadır. Burada "yəni sevdiyin İshaqı" ifadəsinin sonradan yerləşdirildiyi görülməkdədir. Çünki, Hz. İbrahimin (a.s.), iki oğlundan ikincisi olan Hz. İshaqın (a.s.), Hz. İsmayıldan (a.s.) on dörd il sonra doğulmuş olduğuna görə, Hz. İbrahimə (a.s.) verilən qurban əmrindəki 'biricik oğlu' ifadəsinin, ancaq, Hz. İsmayıl (a.s.) haqqında keçdiyi anlaşılır. Bundan əlavə qurban yeri olaraq Meriya sözü qeyd olunub ki, bu da Mərvə təpəsidir. Tarixi məlumatlara əsasən, Hz. İshaqın (a.s) Məkkəyə heç getmədiyini bildiyimizə görə, buradan da Hz. İbrahimin qurban etmək istədiyi 'biricik oğlu'nun Hz. İsmayıl (a.s.) olduğu açıq olaraq görülməkdədir.

Xristianlıqda qurban:

Xristianlıqda Hz. İsanın çarmıxa gərilməsi qurban məfhumuna yeni və fərqli bir məna qazandırmışdır. İnsanoğlunun doğuşdan gətirdiyi günahına qarşılıq olaraq, Hz. İsanın özünü fəda etdiyinə (qurban etdiyinə) inanılmışdır. Xristianlıqdaki bu inanc, insan üçün insanın qurban edildiyi düşüncəsini ortaya çıxartmışdır.

Buna qarşılıq Qurani Kərim, Hz. İbrahim və oğlu İsmayılın Allahın (c.c.) əmrinə könüldən təslim olduqlarını xəbər vermişdir. Onlar, Allahın (c.c.) hüzurunda bir imtahan vermiş, bunun əvəzində Uca Allah (c.c.) ilahi bir lütf olaraq qurban ediləcək bir heyvan bəxşetmiş və onlar Allahın (c.c.) əmrinə uyğun olaraq o heyvanı qurban etmişdirlər. İslam dinindəki qurban ibadəti Hz. İbrahimin qissəsinə əsaslanır.

Qurani Kərim, Hz. İbrahim və oğlu İsmayılın Allahın (c.c.) əmrinə könüldən təslim olduqlarını xəbər vermişdir. Bunun əvəzində Uca Allah (c.c.) ilahi bir lütf olaraq qurban ediləcək bir heyvan bəxşetmiş və onlar Allahın (c.c.) əmrinə uyğun olaraq o heyvanı qurban etmişdirlər.

Vüqarə Məmmədova

İlk tərbiyəni verən anadır

Ana uşaqla təmasda olduğu ilk dəqiqədən onun inkişafı və tərbiyəsi üçün məsuliyyət daşıdığını hiss etməlidir. O, uşaqda müəyyən vərdişlər yaratmalıdır. Südəmər uşaq ilk günlər çimməyi xoşlamır, paltarının, döşəkağısının dəyişdirilməsini, böyrü üstə çevrilməsini, ələ götürülməsini və ya çarpayıya qoyulmasını xoşlamır. Uşaq özünün narazılığını ağlamaq və qışqırmaqla bildirir, əzələlərini gərib müqavimət göstərir.

Südəmər uşaqla ilk gündən danışmaq lazımdır. Ana uşağı çimizdirəcəksə, onu çarpayıdan dinməz-söyləməz götürməməli, ona mehribancasına belə deməlidir, "Gedək çimməyə". Yaxud da ona müraciət edib deməlidir: "İndi sənin qulağını təmizləyəcəm. Bilirəm ki, bu sənin xoşuna gəlmir, lakin nə etməli, qulağın çirkdir", "Yəqin sənə soyuqdur, ağlama indi isinəcəksən" və s. Doğrudur ilk günlər uşaq anasının nə dediyini anlamır, lakin o, ilk gündən onu sakitləşdirən danışıq dili eşitməlidir, belə olduqda çimmə və paltarlarının dəyişdirməsi nisbətən xoş gəlir.

6-9 aylıq uşağı anası götürəndə sevinib gülür. Çimdirən vaxt özü əllərini və ya ayaqlarını boşaldıb növbə ilə anasına uzadır, suda oynayır, bərkdən gülür, anasına baxıb cürbəcür səslər çıxarır, öz dilində anası ilə danışır. Yavaş-yavaş uşaq deyilən sözü başa düşür. Anasının istəklərini yerinə yetirir.

9-12 aylığında uşaq dəcəllik etməyə başlayır. Bu aylarda uşaqlar oyuncaqlarla maraqlanır. Onları öyrənməyə çalışırlar. Uşağa lap əvvəldən istədiyi hər şeyi götürməyə və ya etməyə icazə vermək olmaz. Əgər uşaq qadağan olunmuş şeyi götürübsə sakitcə əlindən alıb əvəzinə zərərsiz başqa bir şey vermək olar. Ona əşyaların adını və bunların nə üçün olduğunu demək, yavaş-yavaş istifadə etməsini öyrətmək lazımdır. Vaxt gələcək özü daraqdan və diş fırçasından istifadə edəcək. Uşaq bir əşyanı yerə atarsa, eybi yoxdur. Anası onu yerdən götürüb uşağa verməli və belə izah etməlidir: "Biz daha bu cür oynamayacağıq" yəni o yerə əyilməkdən yorulub və s. Uşaq həmin şeyi təkrar yerə atarsa, daha onu vermək lazım deyil.

2 yaşına yaxın uşaq get-gedə çevikləşir və müstəqil olur. Böyüklər onu çimdirəndə, saçını darayanda çox vaxt qoymurlar. Bunu özləri etmək istəyirlər. Belə halda anadan çox hövsələli və səbirli olması məsləhət görülür. Uşağın ilk yöndəmsiz hərəkətlərinə qarşı hövsələsizlik göstərməyin, onun kömək etmək həvəsini öldürməyin. Uşaq hər hansı bir işi görə bilmədikdə ona ürək-dirək vermək, görə bildikdə isə tərifləmək lazımdır.

Uşaq 3 yaşında əl-üzünü özü yuyur, dişlərini özü təmizləyir və s. Bütün bunları o həvəslə edir, edə bildiyi üçün də sevinir və fəxr edir. Bunları ona zorla gördürmək olmaz, qoy özü istəyəndə eləsin, yorulduqda, yaxud kefi olmadıqda ona kömək etmək lazımdır.

Uşağın tərbiyəsində, ailə və ətraf mühit böyük rol oynayır. Bütün yaşlı adamlar kimi hər bir uşağın da özünün təkrarolunmaz fərdi xüsusiyyətləri vardır. Ata və ana başa düşməlidir ki, onların övladı onlara çox oxşayan, lakin özünəməxsus xarakteri olan başqa bir insandır. Valideynlər uşaqlarının xarakterindəki fərdiliyi öyrənməyə çalışmalı, bunu başa düşməyi bacarmalıdır.

Müyesser TAŞLIYAR

YERKÖKÜ SALATI

Ərzaqlar:
Yer kökü,
Qarğıdalı (konservi),
Qatıq,
Mayonez,
Sarımsaq,
İstiot,
Duz.

Hazırlanması:

Əvvəlcə yer kökü yuyulur və rəndələnir və dərin bir qabın içinə tökülür. Üzərinə qarğıdalı əlavə olunur. Mayonezlə qatıq bir qabın içində qarışdırılır. Sarımsaq əzilir və istiotla birlikdə mayonezin içinə əlavə olunur. Duzu da əlavə etdikdən sonra qatığın qatılığını azaltmaq üçün bir az su əlavə edib qarışdırılır. Sonra yer kökünün üzərinə tökülüb birlikdə qarışdırılır. Hazır olduqdan sonra üzərini cəfəri ilə bəzəyə bilərsiniz. Nuş olsun!

İKİ RƏNGLİ KEKS

Ərzaqlar:
125 qr marqarin,
5 yumurta,
250 qr pudra şəkəri,
Yarım stəkan süd,
3 stəkan un,
1 paket qabartma tozu, 1 paket vanil,
2,5 yemək qaşığı kakao,
1 ədəd qara şokalad,
Krem şanti.

Hazırlanması:

Geniş bir qabın içində yumurta ilə pudra şəkərini 5-6 dəqiqə yaxşıca qarışdırın. Əridib, soyutduğunuz marqarini, südü, qabartma tozunu, vanili, unu əlavə edib qarışdırın. Xəmiri iki hissəyə bölün. Birinin içinə kakao qatın. Yağlanmış qəlibin içinə ağ xəmiri tökün. Onun üzərinə də kakaolu xəmiri əlavə edin. əvvəlcədən isidilmiş sobada 170-dərəcədə 25-30 dəqiqə bişirin. Bişdikdən sonra şokaladı əridib üzərinə çəkin. Sonra krem şanti ilə istədiyiniz kimi bəzəyin. Nuş olsun!

BADIMCANLI KÖFTƏ

Ərzaqlar:
45 qr marqarin,
1 stəkan yarma,
2 yemək qaşığı tomat,
1 soğan,
2 badımcan,
2 pomidor,
Duz, 6 stəkan su.

Hazırlanması:

Yarmanı bir qaba tökün, üzərinə kifayət qədər isti su ilə duz əlavə edib, yaxşıca yoğurun. Sonra noxud böyüklüyündə hissələr alıb kiçik küftələr hazırlayın. Badımcanın, pomidorun və soğanın qabıqlarını soyub, xırda-xırda doğrayın. Marqarini əridib

soğanı qovurun. Badımcanı əlavə edib bir azda qovurun. Tomatı və pomidorları da əlavə edib 1-2 dəqiqə bişirin. 6 stəkan suyu əlavə edin. Su qaynadıqdan sonra küftələri əlavə edib bişirin. Hazır olduqdan sonra süfrəyə verin. Nuş olsun!

VERMİŞİL ŞORBASI

Ərzaqlar:
2 yemək qaşığı marqarin,
8 stəkan ət və ya toyuq suyu,
3 ədəd pomidor,
2 ədəd bibər,
1 stəkan vermişil,
Duz, qara istiot.

Hazırlanması:

Əvvəlcə marqarini əridin, sonra xırda-xırda doğranmış bibərləri və rəndələnmiş 2 ədəd pomidoru əlavə edin. Pomidorlar əzilib tomat halına gələnə qədər bişirin. Qalan bir ədəd pomidoru xırda-xırda doğrayın. Pomidorlar bişdikdə ət suyunu, xırda doğranmış pomidorları, vermişili və duzu əlavə edib 20 dəqiqə qaynadın. Xırdalanmış cəfərinidə əlavə edib bir-iki dəqiqə bişirin. Çox az istilikdə bişən şorbanı kasalara töküb, isti halda süfrəyə verə bilərsiniz.

Nuş olsun!

Qeyd: Vermişilləri tökərkən qarışdırmasanız bir-birinə yapışar.

Məryəm XƏLİLOVA

FAYDALI MƏSLƏHƏTLƏR

Külü gülün dibinə töksəniz, gülün yarpaqlarına düşən həşaratların qarşısını alarsınız.

Boyaların iyinin qarşısını almaq üçün iki ədəd baş soğanı soyub iki hissəyə bölün və suyun içinə atın.

Kahının yarpaqlarını yuduqdan sonra bıçaqla doğramayın, əlinizlə doğrayın. Bıçaqla doğrasanız içində olan bütün vitaminlər yox olar.

Portağalların suyunu sıxmamışdan əvvəl yarım saat soyuq suda saxlayın. Bu zaman daha çox suyu çıxar.

Südü qaynatdıqda qaymaqlanmaması üçün içinə bir az duz atsanız qarşısını almış olarsınız.

Südün daşmasının qarşısını almaq üçün qazanın ağzına bir az bitki yağı sürtsəniz südünüz daşmaz.

Yemək qoxusundan xilas olmaq istəyirsinizsə bir qabın içərisinə 1 stəkan su və bir yemək qaşığı sirkə töküb bir neçə dəqiqə qaynadın.

Meyvəli tort hazırladığınız zaman meyvələrin qaralmaması üçün meyvələri limonlu suya salıb istifadə edin.

Keks hazırladıqda qaşığınızın xəmirə yapışmaması üçün, qaşığı istifadə etməmişdən qabaq südə batırın.

Pomidorlarınız təravətini itirməyə başladıqda yarım saat duzlu suda saxlayın.

Kartofu bişirərkən suyun içinə bir qaşıq sirkə əlavə edin. Həm rəngi sarı qalır, həm də çox ləzzətli olur.

Plov bişirərkən suyun içinə limon suyu töksəniz, rəngi ağappaq olar.

Suyunu çıxarttığınız limon qabıqlarını atmayın, rəngi qaralmış bıçaqlarınızı və polad əşyalarınızı təmizləyə bilərsiniz.

MƏSCİD ƏDƏBİ



Məscidə gedərkən təmiz paltar geyinməliyik. Paltarlarımız qədər vücudumuzun da təmiz olması vacibdir. Paltarı və corabları kirli olan, tər iyi verən bir insan digər insanların hüzurla ibadət etmələrinə əngəl olacaqdır.

Məscidə girmədən əvvəl dəstəmaz almalıyıq. Dəstəmazı məsciddə də ala bilərik.

Məscidə sağ ayaq ilə girilir, çıxanda sol ayaq ilə çıxılır.

Məscidin içində gəzmək ibadət edənlərin diqqətini dağıtmaq yalnış hərəkətdir.



Məscidə girərkən və ya çıxarkən insanları incitmək, itələmək, öndən çıxmaq kimi davranışlar Məscid ədəbinə uyğun olmayan bir hərəkətdir.



Soğan və sarımsaq yediyimiz zaman dişlərimizi fırçalayıb sonra məscidə getməliyik. Soğan və sarımsağın iyi digər insanları narahat edər.

Namaz qılan birisinin önündən keçmək olmaz. Salam verib bitirməsini gözləməliyik.

Uca Allahın bizim bütün davranışlarımızı gördüyünü heç vaxt unutmamalıyıq. O gözəl davranışları sevər.



Hicran NOVRUZOVA

RUZİNİN MƏCBURİYYƏTİ

Bir zahid: "Hər insanın ruzisini Allah verir", - hədisinin mənasını anlamaq istəyirdi. Başını götürüb, çöllərə düşür. Bir tərəfdə yatıb qalır. Özözünə: "Görək ruzum necə gələcək",-deyir.

Elə bu vaxt yolunu azan bir karvan görünür. Yavaş-yavaş zahidin yatdığı yerə yaxınlaşmışdılar. Karvandakılardan biri zahidin yatdığını görüb: "Bu adam niyə yolun ortasında yatıb qalıb, qurddan, düşməndən qorxmurmu? Ölümü, yoxsa diridirmi",-dedi.

Karvandakılar onun yanına gəldilər. Zahid, görək nə olacaq deyərək, səsini belə çıxartmadı. Nə tərpəndi, nə də gözünü oynatdı. Karvandakılar bunu gördükdə: "Bu yazıq aclıqdan ölür", - dedilər.

Yemək və çörək gətirdilər. Zahid dişlərini yaxşıca sıxmışdı. Adamlar bıçaq gətirib dişlərinin arasına soxaraq zorla ağzını açdılar. Şorbanı ağzına tökərək yemək ləri zahidin ağzına zorla tıxışdırdılar.

Allah bir insana ruzisini bu cür zorla da olsa verir. Hara qaçıb gedirsə getsin ruzisi də onu təqib edir.

ODUNÇU

Həzrət Musa dövründə kasıb bir odunçu var idi. Dağdan topladığı odunları belinə yükləyərək şəhər bazarına gətirir, bir neçə qəpiyə sataraq məişətini təmin edirdi. Odunçu ağır iş görməkdən yorulmurdu. Ancaq özü kimi odunçu olan qonşusunun odunları eşşəyi ilə daşımasına heç cürə razı ola bilmirdi.

Yoxsul odunçu bir gün Həzrət Musanın yanına gəlib vəziyyətini anladaraq belə dedi:

- Kürəyimdə odun daşımaqdan belim yara içindədir. Həyatımda rahatlıq görə bilmədim. Nə olar, Rəbbinin hüzuruna vardıqda mənim halımdan xəbər ver və odun daşımaq üçün mənə bir dənə eşşək versin.

Həzət Musa da Allah təalanın hüzuruna varınca odunçunun arzusunu bildirdi.

Allah Təala:

O bəndəmdə qısqanma xəstəliyi var. Bu xəstəliyindən qurtulmazsa xoşbəxt ola bilməz. Hər şeydən öncə başqalarına

həsəd aparmağı tərk etməlidir. Bu qısqanc bəndəmin qonşusunun eşşəyi xəstələnib. Ona de ki, qonşusunun eşşəyinin sağalması üçün dua etsin. Ondan sonra mən də ona eşşək verərəm, dedi.

Həzrət Musa, Allahın bu təklifini odunçuya çatdırdı. Adamın qısqanclıq damarları qabardı və:

- Qonşumun eşşəyinin sağalması üçün heç vaxt dua etmərəm. Mən halımdan razıyam. Allahdan eşşək də istəmirəm. Yetər ki, qonşumun eşşəyini sağaltmasın, dedi.

Qısqanclıq həqiqətən pis bir xəstəlikdir. Bu xəstəliyə tutulan insan xoşbəxt ola bilməz. Kasıb odunçunu yoran və narahat edən əslində kürəyində odun daşımaq deyil, qısqanclıqdır.

Peyğəmbər Əfəndimiz bu həqiqəti necə də gözəl təsvir edir:

"QISQANMAYIN! ÇÜNKİ ATƏŞİN ODUNLARI YEDİYİ KİMİ, QISQANCLIQ DA YAXŞILIQLARI YEYİB BİTİRƏR."

31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik günü

Azərbaycanlılar minilliklər boyu özlərinin doğma torpağı olan tarixi Azərbaycan ərazisində yaşayaraq dünya sivilizasiyasına böyük töhfələr vermişlər. Müharibələr, inqilablar, hərbi münaqişələr, dünyada gedən müxtəlif ictimai-siyasi proseslər nəticəsində Azərbaycan parçalanmış, azərbaycanlıların bir qismi öz yurd-yuvalarından didərgin salınmış, deportasiyalara məruz qalmış, bir-birindən ayrı düşmüşdür. Beləliklə də, azərbaycanlılar tarixi Azərbaycan torpaqlarından bütün dünyaya yayılmışlar. SSRİ-nin son günləri, Azərbaycan millətinin, Arazın hər iki sahilində sərhəd yürüyüşü, dəmir tikanlı məftilləri qırması, özünü suya vurub öz doğma qardaş bacısına qovuşmaları iki totalitar dövlətin ciddi təzyiqlərinə baxmayaraq, o taylı – bu taylı millətin həftələrlə Araz qırağında gecə-gündüz birləşmək şüarı, Azərbaycanlıların bir millət olduğunu dünya çapında bir daha canlandırdı. Dünya Azərbaycanlılarının Həmrəylik Gününün əsası 1989-cu il dekabrın axırlarında Naxçıvanda sərhədlərin (SSRİ-İran sərhədləri) dağılması zamanı qoyuldu. Şimali və Cənubi Azərbaycan arasındakı sərhəd dirəkləri dağıdıldı. Bu vaxt İstanbulda türk dilli xalqların Konfransı keçirilirdi. Konfransda dünya azərbaycanlılarının həmrəyliyinin qeyd olunmasına qərar verildi.

1991-ci ilin 16 dekabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etdi. 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü Azərbaycan millətinin birlik şüarının simvolik günüdür. Bu bayram dünyanın 70-dən çox ölkəsində azərbaycanlılar tərəfindən qeyd olunur. Dünya Azərbaycanlılarının Həmrəylik Günü ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır. Bu günün qeyd edilməsi bütün dünya azərbaycanlıları tərəfindən artıq bir zərurətə və mənəvi ehtiyaca çevrilmişdir.

Biz də "Bizim ailə" dərgisi olaraq Dünya Azərbaycanlılarının Həmrəylik gününü təbrik edir, Allah Təaladan Azərbaycan millətinin daim birlik və bərabərlik içində olmasını diləyirik.